Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 239 (7966) ÇƏRŞƏNBƏ, 24 oktyabr 2018-ci il   Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur   www.azerbaijan-news.az   Qiymәti 40 qəpik






# İlham Əliyevin BMT zəfəri

## Azərbaycanın 7 il öncə BMT Təhlükəsizlik Şurasının üzvü seçilməsi Prezidentin möhtəşəm diplomatik qələbəsi oldu

**Tariximizə yüksəliş və sürətli inkişaf dövrü kimi yazılan son 15 ildə Azərbaycan həm də mühüm diplomatik uğurlara imza atıb. Düz 7 il əvvəl bunların sırasına növbəti möhtəşəm hadisə əlavə olundu. 2011-ci il oktyabrın 24-də BMT Baş Məclisinin plenar iclasında gizli səsvermənin nəticələrinə görə bu mötəbər təşkilatın Təhlükəsizlik Şurasına üzv seçildi.**

### 155 ölkədən dəstək

Bu gün Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsindən 7 il ötür. Dövlət müstəqilliyimizin bərpasının 20-ci ildönümünə təsadüf etdiyi üçün bu möhtəşəm hadisə cəmiyyətimizin xoş ovqatını daha da rövnəqləndirdi. Bəyanat verərək xalqımızı təbrik edən Prezident İlham Əliyev Azərbaycanın BMT TŞ-yə üzv seçilməsini tarixi nailiyyət kimi qiymətləndirdi: *"Müstəqilliyimiz dövründə - 20 il ərzində belə böyük uğurun əldə edilməsi, doğrudan da, tarixi nailiyyətdir. Biz 20 il ərzində müstəqil ölkə kimi özümüzü dünyada təsdiq edə bilmişik. Biz sübut edə bilmişik ki, Azərbaycan etibarlı tərəfdaşdır, Azərbaycan dost ölkədir və dostların sayının artması bizim siyasətimizin təntənəsidir. Bu səsvermə müstəqilliyimizin 20 illiyinə təsadüf edir. Bu, çox rəmzi məna daşıyan bir hadisədir. Bu göstərir ki, 20 il ərzində Azərbaycan müstəqil dövlət, dünyada böyük şöhrətə malik olan ölkə kimi özünü göstərib".*

Xatırladaq ki, Şərqi Avropa regionundan BMT TŞ-yə yeni üzvün seçilməsi üçün səsvermə bir neçə gün əvvəldən başlamışdı. Bu yerə Azərbaycanla yanaşı Sloveniya və Macarıstan da iddialı idilər. Səsvermənin ilk mərhələsində Macarıstan az səs toplayaraq mübarizədən kənarlaşmışdı. Sonrakı səsvermələrdə mübarizə Azərbaycanla Sloveniya arasında getdi və respublikamız inamla irəliləyərək lehinə olan səsləri artırdı. Səsvermənin 16-cı mərhələsindən sonra Sloveniya tərəfi Azərbaycanın üstünlüyünü görərək mübarizədən geri çəkildi. Beləliklə, səsvermənin 17-ci raundundan sonra Azərbaycan qalib çıxaraq BMT Təhlükəsizlik Şurasının yeni qeyri-daimi üzvü seçildi. Bu mərhələdə respublikamızı ümumilikdə 155 ölkə dəstəkləmişdi.

### Azərbaycanın yüksək beynəlxalq nüfuzu

BMT TŞ-yə üzvlüyün təyinatla və ya növbəlilik prinsipi əsasında deyil, məhz səsvermə yolu ilə mümkün olduğunu da nəzərə alsaq, bu zaman Azərbaycana beynəlxalq ictimaiyyətin etimadının nə dərəcədə yüksək olduğunu görmək olar. BMT üzvü olan digər ölkələr bu qədər səs ala bilmədikləri halda Azərbaycan səsvermənin ilkin mərhələlərindən faktiki olaraq dünyanın bütün bölgələrinin etimadını qazandığını ortaya qoydu.

BMT TŞ-yə keçirilən səsvermədə Azərbaycana səs verənlər sadəcə Cənubi Qafqazın sıradan bir ölkəsinin deyil, beynəlxalq miqyasda özünün müsbət imici ilə tanınan, bütün dünyada hər bir sahə üzrə ciddi nüfuz qazanan bir respublikanın namizədliyini dəstəkləmiş oldular. Bu səsvermə nəticəsində BMT Təhlükəsizlik Şurasına seçilmək Azərbaycanın dünyadakı nüfuzunun göstəricisi, beynəlxalq aləmdə ciddi və etibarlı bir ölkə olduğunu nümayiş etdirdi.

Lakin Azərbaycanın BMT TŞ-nin üzvü seçilməsi ilk növbədə Prezident İlham Əliyevin uğurlu xarici siyasətinin göstəricisi idi. Ölkəmizin bu qələbəsini məhz Prezident İlham Əliyev təmin etdi. Beynəlxalq münasibətlər sistemini dəqiqliyi ilə bilmək, əks mövqelər hazırlamaq, Azərbaycanın xarici siyasətinin doktrinasının tələblərinə müvafiq real, çevik manevrlər etmək və bu planda BMT müstəvisində, xüsusilə də BMT Baş Məclisinin sessiyalarında ölkəmizin maraqlarını müdafiə edən ardıcıl tədbirlər reallaşdırmaq məhz dövlət başçısının iradəsinin, mövqeyinin, siyasi dəst-xəttinin nəticələridir. Ona görə Azərbaycanın bu posta seçilməsi Prezident İlham Əliyevin apardığı düşünülmüş və məqsədyönlü siyasətin məntiqi sonluğu idi.

### BMT TŞ-yə nümunəvi sədrlik

2012-ci ilin yanvarından Azərbaycan BMT TŞ-də səlahiyyətlərinin icrasına başladı. 2012-ci ilin may ayında isə bu quruma sədrlik etdi. BMT TŞ-yə üzv qəbul olunması və dövlət başçısı İlham Əliyevin sədrliyi ilə 2012-ci ilin may ayında TŞ-nin iclasının keçirilməsi ölkəmizin diplomatiya tarixində əldə edilmiş ən böyük nailiyyətlərdən biri olmaqla Azərbaycanın beynəlxalq aləmdə çəkisinin artmasının, dünya siyasətindəki müxtəlif qlobal problemlərin müzakirəsinə cəlb olunmasının, regional siyasətlə yanaşı, dünya siyasətinin də əsas aktorlarından birinə çevrilməsinin göstəricisi idi.

Azərbaycanın BMT TŞ-də ilk sədrliyi uğurla başa çatdı. TŞ-də ilk sədrlik Azərbaycan üçün böyük sınaq olsa da, ölkəmiz bütün vəzifələrin öhdəsindən layiqincə gəldi. Ən əsası, ölkəmizin TŞ-yə ilk sədrliyi göstərdi ki, Azərbaycanın mövqeyi ilə hər kəs hesablaşır. 2013-cü ilin oktyabr ayında Azərbaycan BMT TŞ-də ikinci müddətə sədrlik etdi.

Azərbaycan BMT TŞ-yə üzvlüyü və sədrliyi dövründə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirdi, iki il ərzində dünyada sülh və təhlükəsizliyin təmin olunması istiqamətində səylərini davam etdirdi. Ölkəmiz beynəlxalq hüquq normalarının və ədalətin müdafiəsinə çalışdı, TŞ-yə sədrliyi zamanı sülh və beynəlxalq təhlükəsizliyə dair qlobal, yaxud regional əhəmiyyətli məsələlərin gündəliyini müəyyənləşdirdi. Digər tərəfdən, Azərbaycanın BMT TŞ-də fəaliyyəti ərzində diplomatiyamızın səyləri dövlətimizin milli maraqlarının qlobal səviyyədə genişləndirilməsinə yönəldi. Terrordan və işğaldan əziyyət çəkmiş ölkə kimi Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyə yaradılan təhdidləri, o cümlədən Ermənistanın təcavüzkar siyasətini daim gündəmdə saxladı.

7 il əvvəl ölkəmizin BMT TŞ-yə üzv qəbul olunması mühüm tarixi hadisə idi. Çünki Azərbaycan müstəqilliyinin cəmi 20-ci ilində artıq dünya siyasətini müəyyən edən 15 ölkədən birinə çevrildi. Bu möhtəşəm hadisə Azərbaycanın beynəlxalq nüfuzunu artırdı, regionun lider dövləti statusunu daha da möhkəmləndirdi. Bu həm də onu göstərdi ki, siyasi iradə və əzm olan yerdə istənilən hədəfə çatmaq olar. Bütövlükdə Azərbaycan BMT Təhlükəsizlik Şurasına üzvlüyünü layiqincə başa vurdu, üzərinə düşən missiyanı uğurla yerinə yetirdi. Bizim üçün qürurverici məsələ həm də ondan ibarətdir ki, BMT TŞ-yə üzv olmaq istəyən dövlətlər Azərbaycanın bu istiqamətdəki fəaliyyətini örnək kimi qəbul edirlər.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Azərbaycan və Rusiya bütün istiqamətlərdə fəal əməkdaşlıq həyata keçirir

## İki ölkənin Daxili İşlər nazirlikləri arasında qarşılıqlı fəaliyyət yüksək səviyyədədir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Rusiya Federasiyasının daxili işlər naziri Vladimir Kolokoltsevi qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Vladimir Kolokoltsevin Azərbaycana səfərini əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirərək, iki ölkənin Daxili İşlər nazirlikləri arasında qarşılıqlı fəaliyyətin yüksək səviyyədə olduğunu qeyd etdi. Azərbaycan ilə Rusiyanın dost ölkələr olduğunu vurğulayan Prezident İlham Əliyev ölkələrimizin bütün istiqamətlərdə fəal əməkdaşlıq həyata keçirdiyini bildirdi. Dövlətimizin başçısı bu baxımdan ölkələrimizin Daxili İşlər nazirlikləri arasında çox səmərəli əməkdaşlığın həyata keçirilməsindən məmnunluğunu ifadə etdi.



Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərə toxunaraq, sentyabr ayında özünün Rusiya Federasiyasına rəsmi səfərini, sonra isə Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana səfərini ölkələrimiz arasında mövcud olan qarşılıqlı fəaliyyətin xarakterinin və etimadın əyani nümunəsi kimi dəyərləndirdi. Dövlətimizin başçısı qeyd etdi ki, bu səfərlər zamanı digər məsələlərlə yanaşı, hüquq-mühafizə orqanları arasında əlaqələr də müzakirə edilib və bu sahədə də əməkdaşlıqdan məmnunluq ifadə olunub.

Rusiya Federasiyasının daxili işlər naziri Vladimir Kolokoltsev qəbula görə minnətdarlığını bildirdi. O qeyd etdi ki, bu ilin iyul ayında MDB ölkələrinin Daxili İşlər Nazirləri Şurasının Bakıda keçirilən iclasının iştirakçılarını qəbul edən zaman Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən söylənilən xoş sözlər tədbir iştirakçılarında böyük məmnunluq hissi doğurub.

Ölkələrimizin ikitərəfli münasibətlərinə toxunan Vladimir Kolokoltsev bildirib ki, dövlət başçıları arasında son bir ildə 5 görüşün keçirilməsi bu münasibətlərin inkişaf strategiyasının bundan sonra da möhkəmləndirilməsinin vacib olduğunu göstərir. Eyni zamanda, Aktau şəhərində Xəzəryanı dövlətlərin başçıları tərəfindən imzalanmış sənədlər də hüquq-mühafizə orqanlarının qarşılıqlı fəaliyyəti üçün bir təkan rolu oynayıb.

Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# Heydər Əliyev Fondunun növbəti töhfəsi



**Oktyabrın 23-də Bakının Nərimanov rayonunda Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan 11 saylı xüsusi təhsil məktəbinin yeni binasının açılışı olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva açılışda iştirak edib.

Məktəbin direktoru Şahzadə İsgəndərova burada yaradılan şərait barədə Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verdi. Bildirdi ki, 11 saylı xüsusi təhsil məktəbi 1937-ci ildən fəaliyyət göstərir. Bu təhsil ocağının köhnə binası 1897-ci ildə inşa edilmişdi. Heydər Əliyev Fondu tərəfindən aparılan monitorinq nəticəsində məktəb binasının təhsilə tam yararsız olduğu aşkar edilmiş və Nərimanov rayonunda məktəb üçün yeni binanın inşasına qərar verilmişdi.

*Ardı 2-ci səh.*



# Azərbaycan öz milli-mənəvi, dini dəyərlərinə sadiqdir

**Oktyabrın 23-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Bakının Yasamal rayonunda Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa olunmuş İmam Hüseyn məscidinin açılışında iştirak edib.**

Cəmiyyətin, ölkənin dayanıqlı inkişafı üçün dövlət-din münasibətlərinin çox böyük əhəmiyyəti var. Azərbaycanda bu münasibətlər yüksək səviyyədə tənzimlənir. Vətəndaşlarının əksəriyyəti müsəlman olan Azərbaycanda məscidlərin, eyni zamanda, rus pravoslav, katolik, alban kilsələrinin, sinaqoqların tikilməsi və təmiri dövlətin bu istiqamətdə apardığı siyasətin göstəricisidir. Bu sahədə Heydər Əliyev Fondunun da gördüyü işlər böyük əhəmiyyətə malikdir.

*Ardı 2-ci səh.*

# Xankəndi Yerevana hərbi qiyam hazırlayır

## Paşinyan iqtidarına qarşı Sarkisyan-Koçaryan koalisiyası dövlət çevrilişi planını işə salıb

**Ermənistanda ictimai-siyasi müstəvidə son vəziyyətin təhlili burada Sarkisyan-Koçaryan koalisiyası ilə Nikol Paşinyana bağlı qüvvələr arasında daha böyük qarşıdurmanın olacağını göstərir.**

Məsələ bundadır ki, Paşinyan növbədənkənar parlament seçkilərində Sarkisyan-Koçaryan koalisiyasının iştirak etməyəcəyinə dair vədlər alsa da, indi bəlli olur ki, proseslər heç də onun istədiyi kimi getməyəcək. "Jamanak" qəzeti yazır ki, sabiq prezident Serj Sarkisyanın sədri olduğu Respublika Partiyası növbədənkənar parlament seçkilərində iştirakla bağlı qərar qəbul edib.

Qəzet partiya siyahısındakı ilk 5-lik barədə təxmini məlumat əldə edib: "Siyahıya keçmiş müdafiə naziri Vigen Sarkisyan başçılıq edəcək. Sonrakı yerlərdə keçmiş ədliyyə naziri Arpine Ovannisyan, 1998-2007-ci illərdə ədliyyə naziri işləmiş David Arutyunyan, parlament sədrinin müavini Eduard Şarmazanov və keçmiş elm və təhsil naziri Armen Aşotyan gəlir". Nəşr siyahıda Yerevanın keçmiş meri Taron Marqaryanın da yer alacağını ehtimal edir.

Partiyanın belə bir qərar qəbul etməsi fonunda Ermənistan baş prokurorunun keçmiş müavini Armen Danielyan Serj Sarkisyanı məhkəməyə verib. Sabiq müavin işdən azad edilməsi barədə ovaxtkı prezident Serj Sarkisyanın sərəncamını qanunsuz sayır.

*Ardı 6-cı səh.*

# İndi kəndlinin bərəkətli torpağı, bol suyu, rahat yolu var

**Regionların sosial-iqtisadi inkişafına yönəldilən dövlət proqramlarının Azərbaycanın bölgələrinə gətirdiyi yeniliklər İmişli rayonunun simasında da özünü aydın göstərir. İndiyədək bu proqramlar çərçivəsində rayonda bir sıra önəmli işlər görülüb.**

Nəticədə bu bölgədə də qeyri-neft sektoru inkişaf edir, yeni iş yerləri açılır, əhalinin güzəranı getdikcə daha da yaxşılaşır. Digər rayonlar kimi, İmişlinin də sosial-iqtisadi inkişafı dövlət başçısının daim diqqət mərkəzindədir. Ölkənin Prezidenti seçildiyi 2003-cü ildən bəri İlham Əliyev 5 dəfə bu rayonda səfərdə olub.

Prezidentin cari il oktyabrın 22-də rayona səfəri zamanı neçə-neçə istehsal və sosial yönümlü yeni obyektin açılışında iştirak etməsi İmişli rayonuna dövlət qayğısının və dəstəyinin daha bir əyani təzahürüdür. Həmin gün istifadəyə verilən Araz çayının yeni qol-kanalı vasitəsilə Saatlı, İmişli və Biləsuvar rayonlarının torpaq sahələri suvarma suyu ilə təmin olunacaq. Bu kanal ölkədə qeyri-neft sektoruna, o cümlədən aqrar sahənin inkişafına sanballı töhfə verəcək.

Torpağın canı sudur. Bu baxımdan ölkədə çoxsaylı meliorasiya tədbirlərinin həyata keçirilməsi böyük önəm kəsb edir.







*Ardı 3-cü səh.*

# Qobustan rayonunun Qobustan-Poladlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Beş min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Qobustan-Poladlı avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 6,4 milyon (altı milyon dörd yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 oktyabr 2018-ci il*

# "Qlobal miqrasiya böhranı: *Beynəlxalq münasibətlər və Qərb siyasəti yeni tarixi dönüş ərəfəsində*" kitabı çapdan çıxıb

Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun ideya müəllifliyi və baş redaktorluğu ilə "Qlobal miqrasiya böhranı: Beynəlxalq münasibətlər və Qərb siyasəti yeni tarixi dönüş ərəfəsində" kitabı çapdan çıxıb.




AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin əməkdaşlarının (fəlsəfə üzrə elmlər doktoru, professor Tahirə Allahyarova, aparıcı elmi işçi Şahmar Hacıyev, elmi işçilər Elnarə Qəribova, Ayaz Rzayev və Orxan Bağırov) müəllifliyi ilə nəşr edilən kitabda hazırda dünyada yaşanan və milyonlarla insan həyatına təsir edən humanitar faciə - miqrasiya böhranı və onun yaranma səbəbləri ilə bağlı məsələlərə yeni baxış bucağından nəzər salınır. Miqrasiya proseslərinin təhlilində siyasi səbəblər və böhranın geosiyasi əsasları diqqət mərkəzinə gətirilir, miqrasiya böhranının müasir beynəlxalq münasibətlər sisteminin böyük sınağı kimi çıxış etməsi vurğulanır.

Kitabda miqrasiya proseslərinin tarix qədər qədim olması, bundan fərqli olaraq miqrasiya siyasətinin bir Qərb fenomeni kimi yeni dövrdə, Qərb məkanında milli dövlətin yaranması ilə formalaşması, XVII-XIX əsrlərdə müstəmləkəçilik siyasətinin miqrasiya proseslərinin tənzimlənməsinə təsirinin, Qərbin miqrasiya siyasəti modelinin geosiyasi maraqlara xidmət edərək tarixi ənənəyə çevrilməsində müstəmləkəçi irsin yeri və rolunun elmi şəkildə əsaslandırılmasına cəhd edilir. Nəşrdə eyni zamanda, XX əsrdə beynəlxalq miqrasiya və qaçqın hüququnun yaradılması, miqrasiyanın tənzimlənməsi üçün vaxtaşırı müxtəlif siyasi-hüquqi modellərin tətbiqinin həqiqi məqsədləri təhlil edilir.

Kitabda XXI yüzilliyin əvvəllərində başlayan miqrasiya böhranının Avropa İttifaqı dövlətləri arasında dərin fikir ayrılığı yaratması məsələsi və qitənin müstəmləkəçi keçmişə malik olan dövlətləri ilə Şərqi Avropa ölkələrinin baş verən proseslərdə heç bir məsuliyyət daşımadıqları ilə bağlı mövqeyi müqayisə edilir.

Miqrasiya mövzusuna həsr edilmiş nəşrdə Cənubi Qafqazdakı tarixi miqrasiya proseslərinin episentri kimi Azərbaycana nəzər salınır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yaranma səbəbləri aspektində tarixən imperiyaların müstəmləkəçi köçürmə siyasəti və onun həlli yolunda maneə kimi qaçqınların hüquqlarının təmin edilməsində geosiyasi maraqların toqquşmasından irəli gələn "ikili standartlar"ın rolu təhlil edilir.

Kitabda belə nəticəyə gəlinir ki, miqrasiya böhranı beynəlxalq münasibətlərin ənənəvi oyun qaydalarına, Qərb dövlətlərinin indiyə qədər yürütdüyü daxili və xarici siyasətlərinə dərin təsirini göstərən "geosiyasi cəbhə xətti" kimi çıxış edir.

Miqrasiya böhranı Qərbin siyasi-hüquqi, iqtisadi, ideoloji, sosial-mədəni siyasətinin bütün səviyyələrdə müşahidə edilən böhranına, beynəlxalq ədalətin, liberal insan hüquqları və multikulturalizm dəyərlərinin iflası prosesinə çevrilməkdədir. Dünya birliyi miqrasiya böhranının həllinə yalnız beynəlxalq ədalət və hüquq prinsiplərinə əməl etməklə nail ola bilər. Qeyd edilənlər də öz növbəsində, miqrasiya probleminin siyasi aspektlərinin səbəblərinin tədqiq olunmasını zəruri edir.

Kitab miqrasiya problemləri ilə maraqlanan ekspertlər, alimlər, tələbələr, eləcə də geniş oxucu auditoriyası üçün nəzərdə tutulub.

# Nazirlər Kabinetinin rəsmi internet saytı rus dilində də fəaliyyətə başlayıb

Son vaxtlar ölkədə tətbiq olunan "Elektron hökumət" konsepsiyasının tələblərinə uyğun olaraq, Nazirlər Kabineti Aparatının rəsmi internet saytında *(www.cabmin.gov.az)* yeni struktur dəyişiklikləri aparılıb. Sayt daha da təkmilləşdirilərək, yeni funksional bölmələr əlavə edilməklə zənginləşdirilib və onun ən son internet texnologiyaları əsasında mükəmməl dizaynı hazırlanıb.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu günlərdə saytda daha bir yenilik olub. Belə ki, saytın rus dilində versiyası da fəaliyyətə başlayıb. Bununla da Nazirlər Kabinetinin saytı dövlət qurumları arasında xarici dillərdə də bölməsi olan qurumların siyahısına əlavə olunub. Müstəqil Dövlətlər Birliyi (MDB) məkanında hökumətlərin rusdilli informasiya resursunun olması xüsusi əhəmiyyət daşıyır. İndiyədək MDB məkanında yalnız Azərbaycan Respublikası Nazirlər Kabinetinin rus dilində internet saytı mövcud deyildi.

Hazırda saytda müntəzəm olaraq Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun iştirakı ilə keçirilən qəbullar və görüşlər, rəsmi tədbirlər, imzalanmış qərarlar, Nazirlər Kabinetinin iclasları haqqında operativ məlumatlar, tədbirlərdən fotoşəkillər və digər informasiyalar yerləşdirilir.

Həmçinin bütün bunlar barədə indi "Twitter" sosial şəbəkəsindən də operativ məlumat əldə etmək mümkündür. Hazırda Nazirlər Kabinetinin "Twitter" səhifəsindən *(@AzerbaijanNK)* 3 dildə - Azərbaycan, rus və ingilis dillərində paylaşımlar edilir.

# Azərbaycan öz milli-mənəvi, dini dəyərlərinə sadiqdir





*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, məscidin axundu Hacı Əbdül Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya İmam Hüseyn məscidi barədə məlumat verdi.

Bildirildi ki, məscid 1890-cı ildə xeyriyyəçi Hacı Hacıbala tərəfindən tikilib. 1920-ci ildə bolşevik işğalından sonra məscid bir müddət bağlı qalıb. Lakin sonralar yenidən dindarların istifadəsinə verilib. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra məscid təmir olunub.



Azərbaycanın qədim məscidlərindən biri olan İmam Hüseyn məscidində 2017-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə əsaslı təmir və bərpa işlərinə başlanılıb. Yüksək keyfiyyətlə aparılan təmir zamanı binanın memarlıq üslubu qorunub saxlanılıb, ərazisi abadlaşdırılıb. Məscidin sahəsi 300 kvadratmetrdir. Burada eyni vaxtda 400 nəfər ibadət edə bilər. İmam Hüseyn məscidinin ərazisində 130 nəfərlik mərasim zalı da inşa olunub.

Azərbaycanda dini-mənəvi dəyərlərin qorunmasına hər zaman yüksək diqqət göstərilib. Son bir neçə ildə ölkədə onlarla məscid, ibadətgah və dini ziyarətgah təmir olunaraq xalqın istifadəsinə verilib. Təbii ki, bu prosesdə Heydər Əliyev Fondu da xüsusi fəaliyyəti ilə seçilib. Fondun dəstəyi ilə bərpa olunan İmam Hüseyn məscidinin istifadəyə verilməsi də milli-mənəvi dəyərlərin qorunması istiqamətində həyata keçirilən tədbirlərdəndir.

Məscidin axundu Hacı Əbdül Birinci vitse-prezident Mehriban Əliyevaya müqəddəs Qurani-Kərim hədiyyə etdi. Dövlət-din münasibətlərinin Azərbaycan modeli bu gün dünyanın müxtəlif ölkələrində öyrənilir. Azərbaycanın bu istiqamətdəki siyasəti artıq özünü həm ölkəmizdə, həm bölgədə və həm də dünyada təsdiq edib. Azərbaycan öz milli-mənəvi, dini dəyərlərinə sadiq, onları qoruyan, eyni zamanda, müsəlman aləmində həmrəyliyin möhkəmləndirilməsi üçün səylərini əsirgəməyən bir ölkə kimi tanınır.

# Heydər Əliyev Fondunun növbəti töhfəsi











*Əvvəli 1-ci səh.*

Birinci vitse-prezident Mehriban Əliyeva məktəbin rəmzi açılışını bildirən lenti kəsdi və bu təhsil ocağında yaradılan şəraitlə tanış oldu.

Qeyd edildi ki, təhsil müəssisəsinin binasının ümumi sahəsi 4 min kvadratmetrdən çoxdur. Burada 21 sinif otağı, psixoloq, defektoloq, həkim otaqları, idman və akt zalları, yeməkxana var. Eyni zamanda, burada uşaqların istifadəsi üçün kitabxana yaradılıb.

Məktəbin üçmərtəbəli binası 250 şagird yerlikdir. Hazırda 651 nəfər evdə, 137 şagird isə məktəbdə təhsil alır. Məktəbdə 289 müəllim çalışır və onlar autizm, Daun sindromlu, ümumtəhsil proqramını mənimsəyə bilməyən və əqli inkişaf geriliyi diaqnozu olan uşaqlara təlim keçirlər. Ümumtəhsil proqramını mənimsəyə bilməyən şagirdlər də il ərzində aşkarlanaraq bu məktəbə yönləndirilir. Onillik məktəbin tədris planına defektoloq saatları daxil edilib. Eyni zamanda, xüsusi uşaqlar üçün psixoloq saatları ayrılıb. Texnologiya dərslərində isə uşaqların bacarıqları aşkar olunur. Bir sözlə, bu məktəbdə xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil alması, onların təlim-tərbiyəsi ilə hərtərəfli məşğul olmaq üçün bütün imkanlar mövcuddur. Bütün bunlar isə xüsusi qayğıya ehtiyacı olan insanların sosial müdafiəsinin gücləndirilməsi, onların həyat şəraitinin yaxşılaşdırılması, bu qəbildən olanların təhsil problemlərinin həlli istiqamətində son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə əhəmiyyətli addımların atılmasından irəli gəlir. 11 saylı xüsusi təhsil məktəbinin yeni binasının Heydər Əliyev Fondunun təşəbbüsü ilə müasir səviyyədə inşa olunması bir daha sübut edir ki, fond da bu istiqamətdə dövlətin icra etdiyi layihələrə sanballı töhfələr verir. Bu layihənin icrası aydın şəkildə göstərir ki, humanizm, insani dəyərlərə hörmət, dinindən, dilindən, cinsindən, yaşından asılı olmayaraq hər kəsə diqqət göstərmək Heydər Əliyev Fondunun fəaliyyətində əsas prinsiplərdən biridir.

Məktəbin həyətində geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zonası yaradılıb, istirahət köşkləri qurulub. 11 saylı xüsusi təhsil məktəbinin yeni binasında yaradılan şəraitlə tanış olan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva bu təhsil ocağına fəaliyyətində uğurlar arzuladı.

# Azərbaycan və Rusiya Daxili İşlər nazirliklərinin xüsusiləşdirilmiş İşçi Qrupunun növbəti iclası

Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubovun dəvəti ilə Rusiya Federasiyasının daxili işlər naziri, polis generalı Vladimir Kolokoltsevin başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə işgüzar səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, səfərin əsas məqsədi hər iki ölkənin sərhədyanı ərazilərində daxili işlər orqanlarının birgə fəaliyyətinin razılaşdırılması və əlaqələndirilməsi üzrə Azərbaycan Respublikası və Rusiya Federasiyası Daxili İşlər nazirliklərinin xüsusiləşdirilmiş İşçi Qrupunun növbəti iclasında iştirak etmək olub.





Oktyabrın 23-də xüsusiləşdirilmiş İşçi Qrupun növbəti iclası işə başlayıb.

Nazir Ramil Usubov tədbirdə çıxış edərək Rusiya Federasiyasının daxili işlər naziri Vladimir Kolokoltsevi və başçılıq etdiyi nümayəndə heyətini salamlayıb, toplantının işinə uğurlar arzulayıb. Gündəlikdəki məsələlər üzrə çıxış edən nazir R.Usubov bu gün iki ölkə arasındakı əlaqələrin bütün sahələrdə inkişaf edərək yeni mərhələyə qədəm qoyduğunu, prezidentlər İlham Əliyevin və Vladimir Putinin siyasi iradələrinə uyğun olaraq, ölkələrimiz arasında strateji tərəfdaşlığın, cəmiyyət həyatının ən müxtəlif sahələri üzrə işbirliyinin və inteqrasiyanın daha da dərinləşdiyini, ikitərəfli münasibətlərdə hüquq-mühafizə fəaliyyətinin də mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Nazirliklər arasında əməkdaşlığın əsas prioritetlərindən birinin sərhədyanı bölgələrdə ictimai təhlükəsizliyin, dayanıqlı sabitliyin etibarlı təmini olduğunu nəzərə çatdıran nazir qarşıya qoyulan bütün vəzifələrin və verilən tapşırıqların birgə səylərlə uğurla yerinə yetirildiyini, bu işdə İşçi Qrupun da önəmli rola malik olduğunu məmnunluqla xatırladıb.

O, Rusiya Federasiyası Dağıstan Respublikasının Daxili İşlər Nazirliyi ilə də səmərəli əməkdaşlığın mövcudluğunu, tərəflər arasında daimi informasiya mübadiləsi aparıldığını, ən müxtəlif səviyyələrdə görüşlərin keçirildiyini, qarşılıqlı faydalı işbirliyinin müsbət nəticələrinin olduğunu, müxtəlif istiqamətlərdə, o cümlədən cinayətlərin açılmasını, axtarışda olanların tutulmasını, onların ekstradisiyasını, sərhədyanı regionlarda birgə razılaşdırılmış tədbirlərin təşkil edildiyini bildirib.

İclasda İşçi Qrupun yarandığı vaxtdan indiyədək birgə əməliyyat-profilaktik tədbirlərin təşkilində və həyata keçirilməsində xeyli müsbət təcrübə qazandığı, bununla da ümumi işə töhfə verdiyi nəzərə çatdırılıb. Qeyd olunub ki, “Sərhəd-Sipər” kompleks əməliyyat-profilaktik tədbirlərin keçirildiyi təkcə son beş il ərzində Azərbaycan tərəfindən 535 odlu silah, 43 min ədəd hərbi sursat aşkarlanaraq götürülüb, axtarışda olan 202, o cümlədən Rusiyanın hüquq-mühafizə orqanları tərəfindən axtarılan 85 nəfər tutulub.

Nazir beynəlxalq terrorçuluq və transmilli mütəşəkkil cinayətkarlığın yeni çağırış və təhdidlərinin artaraq qlobal xarakter aldığını, ekstremizmi, aqressiv separatizmi təbliğ edən radikal elementlərin vaxtında müəyyənləşdirilməsi və qanunsuz fəaliyyətlərinin qarşısının alınması istiqamətində hər iki tərəfdən fəal əməliyyat-profilaktiki tədbirlərin həyata keçirilməsinin vacibliyini, bu istiqamətdə müsbət nəticələrin əldə edildiyini diqqətə çatdırıb. Ramil Usubov cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması, axtarışda olanların tutularaq ekstradisiya olunması, kadr hazırlığı və qarşılıqlı maraq doğuran informasiya mübadiləsi sahələrində köməyə, əlaqələrin inkişafına göstərdiyi diqqətə, əməkdaşlığa böyük şəxsi töhfəsinə görə Vladimir Kolokoltsevə təşəkkürünü bildirib.

Rusiya Federasiyasının daxili işlər naziri, polis generalı Vladimir Kolokoltsev qonaqpərvərliyə və tədbirin yüksək səviyyədə təşkilinə görə azərbaycanlı həmkarına minnətdarlığını ifadə edib. İki ölkənin daxili işlər orqanları arasında əməkdaşlığın genişləndirilməsinə Rusiya tərəfinin hər zaman böyük önəm verdiyini, xüsusiləşdirilmiş İşçi Qrupun növbəti iclasının Bakıda keçirilməsinin bunun əyani təzahürü olduğunu qeyd edən rusiyalı nazir hazırkı səfərin də beynəlxalq terrorçuluq və transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində qarşılıqlı faydalı əməkdaşlıq üçün yeni imkanlar açacağına, bunun son vaxtlar iki nazirlik arasındakı ənənəvi sıx peşəkar əlaqələrin məqsədyönlü şəkildə yeni məzmunla, müasir forma və metodlarla zənginləşməsinə xidmət edəcəyinə əminliyini vurğulayıb.

Vladimir Kolokoltsev bu səfərin ikitərəfli münasibətlərin inkişafında əhəmiyyətli hadisə olacağına, eyni zamanda, əməliyyat-xidməti fəaliyyətin bütün sahələrində əməkdaşlığı dərinləşdirməyə əlavə impuls verəcəyinə inandığını bildirib.

İclasda sərhədyanı ərazilərdə ictimai təhlükəsizliyin təmini və birgə razılaşdırılmış səylərin səmərəliliyinin artırılması istiqamətində Azərbaycan və Rusiya Daxili İşlər nazirliklərinin əməkdaşlığının vəziyyəti, xüsusiləşdirilmiş İşçi Qrupun fəaliyyəti, 2019-2020-ci illərdə həmsərhəd ərazilərdə onun təşkilati-praktik tədbirlər planı, bu il keçirilmiş “Sərhəd-Sipər” kompleks əməliyyat-profilaktik tədbirlərinin yekunları müzakirə edilib.

İclasda xüsusiləşdirilmiş İşçi Qrupun hər iki ölkədən olan həmsədrlərinin - Rusiya Federasiyası Dağıstan Respublikasının daxili işlər naziri, polis general-leytenantı Abduraşid Maqomedovun və Azərbaycan Daxili İşlər Nazirliyi Baş Cinayət Axtarış İdarəsinin rəisi, polis general-mayoru Arzu Daşdəmirovun məruzələri də dinlənilib.

Tədbir nazirlərin iştirakı ilə yekun sənədlərin, o cümlədən sərhədyanı ərazilərdə birgə fəaliyyətin razılaşdırılması və əlaqələndirilməsi üzrə Azərbaycan Respublikası və Rusiya Federasiyası Daxili İşlər nazirliklərinin xüsusiləşdirilmiş İşçi Qrupunun Bakı iclasının protokolunun imzalanması ilə başa çatıb.

# Pakistan Prezidenti Azərbaycanın Dövlət Sərhəd Xidmətinin rəisini qəbul edib

Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi, general-polkovnik Elçin Quliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Pakistan İslam Respublikasının Silahlı Qüvvələrinin Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri, general Zübair Mahmud Hayatın dəvəti ilə oktyabrın 22-dən bu ölkədə səfərdədir.



AZƏRTAC xəbər verir ki, oktyabrın 24-dək davam edəcək səfər çərçivəsində general-polkovnik Elçin Quliyev Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi tərəfindən qəbul edilib.

Söhbət zamanı Azərbaycan ilə Pakistan arasında müxtəlif sahələrdə sıx əməkdaşlıq əlaqələrinin mövcudluğu, Pakistanın 1991-ci ildə Azərbaycan Respublikasının müstəqilliyini, eləcə də Xocalı soyqırımını tanıyan ilk ölkələrdən biri olduğu vurğulanıb. Həmçinin 1992-ci ildə iki ölkə arasında diplomatik əlaqələrin qurulduğu, ölkə rəhbərləri və hökumət nümayəndələri səviyyəsində qarşılıqlı səfərlərin həyata keçirildiyi, Pakistanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində daim Azərbaycanın mövqeyini dəstəklədiyi qeyd edilib.

General-polkovnik Elçin Quliyev Azərbaycanın dövlət sərhədlərində mövcud əməliyyat şəraiti haqqında Pakistan Prezidentinə məlumat verib. Ermənistanın təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğu, Azərbaycan-İran sərhədinin 132, Azərbaycan-Ermənistan sərhədinin isə 733 kilometrlik hissəsinin nəzarətsiz qaldığı qeyd edilib. Əlavə olaraq, Dövlət Sərhəd Xidmətinin fəaliyyəti, həyata keçirilən islahatlar, maddi-texniki bazanın inkişafı üzrə görülmüş işlər və əldə olunan nailiyyətlər barədə də ətraflı məlumat verilib.

General-polkovnik Elçin Quliyevin Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri, general Zübair Mahmud Hayat ilə görüşündə ölkələrimiz arasında dostluq əlaqələrinin yüksək səviyyədə olduğu qeyd edilib. Bundan başqa, sərhəd təhlükəsizliyi sahəsində əlaqələrin qurulması və inkişaf etdirilməsi, təcrübə mübadiləsinin həyata keçirilməsi, tərəflərin müvafiq heyətinin xüsusi təlim və kurslarda iştirakı və s. məsələlər müzakirə olunub.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Pakistan İslam Respublikasının Quru Qoşunlarının komandanı, general Qamar Cavad Bacva, Hərbi Dəniz Qüvvələrinin komandanı admiral Zəfər Mahmud Abbasi və Pakistan İslam Respublikasının 11-ci ordu korpusunun komandiri, general-leytenant Nazir Əhməd Batla da görüşlər keçirib.

Azərbaycan nümayəndə heyətinin Pakistana səfəri davam edir.

# Azərbaycan-Estoniya əlaqələrinin inkişaf perspektivləri müzakirə olunub

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə rəsmi səfərdə olan Estoniya parlamentinin vitse-spikeri Kalle Laanet ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir Elmar Məmmədyarov Azərbaycan ilə Estoniya arasındakı münasibətlərin uğurla inkişaf etdiyini diqqətə çatdırıb. Elmar Məmmədyarov həmçinin Azərbaycan ilə Estoniya arasında informasiya və kommunikasiya texnologiyaları, “Elektron hökumət” sahələrində uğurlu əməkdaşlığın mövcud olduğunu qeyd edib. Avropa İttifaqı-Azərbaycan münasibətlərinə toxunan nazir ölkəmizin Şərq Tərəfdaşlığı çərçivəsində iştirakı, əlaqələrin hüquqi əsasını təşkil edəcək yeni, strateji əhəmiyyətli saziş üzrə aparılan danışıqlar barədə qarşı tərəfə məlumat verib.

Kalle Laanet öz növbəsində, Estoniyanın Azərbaycanla əməkdaşlığa daim maraq göstərdiyini, ölkələrimiz arasında informasiya-kommunikasiya texnologiyaları, o cümlədən nəqliyyat sahələrində əməkdaşlıq üçün geniş potensialın olduğunu qeyd edib.

Görüşdə Azərbaycan-Estoniya münasibətlərinin hazırkı səviyyəsindən məmnunluq ifadə edilib, tərəflər arasında siyasi dialoqun davamlı şəkildə aparılmasının və yüksək səviyyəli mütəmadi qarşılıqlı səfərlərin, görüşlərin keçirilməsinin əhəmiyyəti vurğulanıb.

# Bakıda istedadlı və yaradıcı gənclərin III Respublika toplantısı keçirilib

Oktyabrın 23-də “Fairmont Baku” hotelində istedadlı və yaradıcı gənclərin III Respublika toplantısı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə mədəniyyət naziri Əbülfəs Qarayev, gənclər və idman nazirinin müavini İntiqam Babayev, təhsil nazirinin müavini Firudin Qurbanov, Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) akademik-katibi, AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunun direktoru Rasim Əliquliyev, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru Elçin Babayev, elm və təhsil müəssələrinin nümayəndələri, gənclər iştirak ediblər.

Əvvəlcə Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Sonra respublikamızda istedadlı və yaradıcı gənclərin fəaliyyəti, bu sahədə keçirilən tədbirlərlə bağlı videoçarx nümayiş etdirilib.

Toplantıda çıxış edən mədəniyyət naziri Əbülfəs Qarayev Azərbaycan gəncliyinin inkişafı üçün ölkəmizdə geniş yaradıcılıq mühitinin olduğunu vurğulayıb. Nazir ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi illərdə ölkəmizdə dövlət gənclər siyasətinin formalaşdığını, gənclərlə bağlı bir çox yeniliklərə imza atıldığını, yeni nazirliyin təsis olunduğunu, mühüm istiqamətlərin müəyyən edildiyini, dövlət proqramlarının həyata keçirildiyini bildirib.

Bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayan nazir qeyd edib ki, dövlət başçısının sərəncamı ilə təsdiq olunan “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramı demək olar ki, ölkəmizin bütün sahələrini əhatə edən, gənclərə istiqamət verən mühüm sənəddir. Gənclər bu imkanlardan səmərəli istifadə etməli, ölkəmizin inkişafına öz töhfələrini verməlidirlər. Yaradıcı gənclər daim özlərini inkişaf etdirməli, müasir biliklərə yiyələnməli, müasir texnologiyaların imkanlarından yüksək səviyyədə istifadəni bacarmalıdırlar. Bütün bunlar yüksək yaradıcılıq tələb edən amillərdir.

“Biz öz gəncliyimizə böyük nikbinliklə baxır, onların uğurları ilə qürur duyuruq. Bu gün gənclərimiz Azərbaycanı beynəlxalq aləmdə uğurla təmsil etməyə, ölkəmizin adını uca tutmağa nail olublar” - deyə Əbülfəs Qarayev vurğulayıb.

Gənclər və idman nazirinin müavini İntiqam Babayev bildirib ki, toplantı Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq olunan “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramının müvafiq bəndinin icrasını təmin etmək məqsədilə keçirilir. 2013-cü ildə “Gənclər üçün Prezident Mükafatı”nın təsis edilməsinin dövlət başçısının gənclərə diqqət və qayğısının bariz nümunəsi olduğunu bildirən nazir müavini Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasətinin Azərbaycan gəncliyinin inkişafına təkan verdiyini, onların özlərini cəmiyyətdə təsdiq etməsində mühüm rol oynadığını deyib. Qeyd edib ki, Prezident İlham Əliyevin “qara qızıl”ı insan kapitalına çevirmək” konsepsiyası bu gün uğurla həyata keçirilir.

Gənclərin milli kompüter oyunlarına marağının get-gedə artdığını vurğulayan İ.Babayev belə yarışların əhəmiyyətini xüsusi qeyd edərək, ölkəmizdə kreativ düşüncəli və bacarıqlı gənclərin olmasından məmnunluğunu bildirib. Yaradıcı gənclərdən ibarət kompüter oyunları üzrə peşəkar komandaların formalaşdığını vurğulayan nazir müavini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağla bağlı kompüter oyunlarının istifadəyə verildiyini diqqətə çatdırıb. Bildirib ki, bu oyunlar Qarabağ həqiqətlərinin dünyaya çatdırılması istiqamətində mühüm təbliğat vasitəsidir. Sevindirici haldır ki, gənclərimiz bu sahədə fəal iştirak edir, ölkəmizlə bağlı həqiqətlərin dünyaya çatdırılması işinə layiqli töhfə verirlər.

Əlilliyi olan istedadlı gənclərin yaradıcılıqlarının reallaşdırılması sahəsində görülən işlərdən danışan İntiqam Babayev bu qəbildən gənclərin sosial inteqrasiyası və adaptasiyasında “Şərq nağılı” beynəlxalq yaradıcılıq festivalının və digər tədbirlərin önəmini vurğulayıb.

Təhsil nazirinin müavini Firudin Qurbanov Azərbaycanda gənclərin inkişafına dəstək verilməsinin dövlət gənclər siyasətinin əsas istiqamətlərindən biri olduğunu qeyd edərək bunun üçün hər cür şəraitin yaradıldığını deyib. Bildirib ki, gənclərin himayədarı olan ümummilli lider Heydər Əliyev ölkəmizdə hərtərəfli inkişaf etmiş gənc nəslin yetişməsini dövlətin və cəmiyyətin mühüm vəzifəsi hesab edirdi. Azərbaycanda istedadlı gənclərin potensialının daha da artırılması, onların stimullaşdırılması, yaradıcı fəal gənclərin mükafatlandırılması, ali məktəblərə qəbul imtahanlarında yüksək bal yığmış gənclər üçün prezident təqaüdlərinin təsis olunması məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Prezident İlham Əliyevin gənclərin inkişafına, onların bilik və bacarıqlarının artırılmasına, yeni dövrün tələblərinə uyğun yetişmələrinə daim yüksək diqqət yetirdiyini vurğulayan Firudin Qurbanov bunun sayəsində gənclərimizin beynəlxalq arenalarda parlaq nailiyyətlər qazandıqlarını qeyd edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru Elçin Babayev dinamik inkişaf edən Azərbaycanda gənclərimizin yüksək təhsil almaları üçün hərtərəfli şəraitin yaradıldığını vurğulayıb. Ölkəmizdə gənclərə bütün sahələrdə böyük etimad göstərildiyini vurğulayan Elçin Babayev bildirib ki, dövlət başçısı bu istiqamətdə müxtəlif sərəncamlar imzalayıb, dövlət proqramlarını təsdiq edib. Gənclər və İdman Nazirliyinin, Gənclər Fondunun, Prezident Administrasiyasında gənclər siyasəti və idman məsələləri şöbəsinin yaradılması bu sahəyə göstərilən diqqət və qayğının bariz göstəricisidir.

Gənclər siyasətinin həyata keçirilməsində müxtəlif gənclər təşkilatlarının birgə səmərəli fəaliyyətinin əhəmiyyətini diqqətə çatdıran icraçı direktor Azərbaycanda insan kapitalına böyük sərmayə qoyulduğunu vurğulayıb. Qeyd edib ki, gənclərimiz göstərilən etimadı doğrultmaq üçün bilikli, savadlı olmalı, müasir texnologiyaları mənimsəməli, xarici dilləri öyrənməlidirlər. Prezident İlham Əliyev qarşımıza vəzifə qoyub ki, ölkəmiz regionun siyasi-iqtisadi sahədə lider dövləti olduğu kimi, bölgənin beynəlxalq elm mərkəzinə də çevrilməlidir. Gənclik orta və yaşlı nəsillə birlikdə bu məqsədə doğru birgə hərəkət etməlidir.

AMEA-nın akademik-katibi, akademiyanın İnformasiya Texnologiyaları İnstitutunun direktoru Rasim Əliquliyev “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramından irəli gələn vəzifələrin uğurla yerinə yetirilməsi üçün akademiyanın qarşısında duran vəzifələrdən danışıb. Son illər AMEA-nın bu istiqamətdə bir sıra mühüm tədbirlər həyata keçirdiyini bildirən alim deyib ki, akademiyanın, Təhsil, eləcə də Gənclər və İdman nazirliklərinin birgə təşkilatçılığı ilə Azərbaycanın gənc alimlərinin I qurultayı keçirilib. Həmin tədbirdə gənc alimlərimiz dövlətin diqqət və qayğısına cavab olaraq müstəqil Azərbaycanın inkişafına yeni və daha böyük töhfələr vermək üçün öz üzərilərində səylə çalışmağın zəruriliyini yekdilliklə ifadə ediblər. Bu istiqamətdə əsas məqsəd gəncliyin intellektual potensialının üzə çıxarılması, onların təhsil və məşğulluq məsələlərinə diqqətin artırılmasıdır.

İstedadlı və yaradıcı gənclərin III Respublika toplantısının rəsmi açılış mərasimindən sonra keçirilən bölmə iclaslarında dövlət və yaradıcı qurumların nümayəndələri, gənclər və ekspertlər müxtəlif yaradıcılıq istiqamətlərində təhlillər və müzakirələr aparıb, inkişaf perspektivlərinə nəzər yetiriblər.

Günün ikinci yarısında görkəmli elm və mədəniyyət xadimlərinin iştirakı ilə intellektual inkişaf, elm, təhsil, kino, teatr, ədəbiyyat, musiqi və rəqs, təsviri və dekorativ-tətbiqi sənət, foto və s. istiqamətlər üzrə paralel görüşlər keçirilib.

İstedadlı və yaradıcı gənclərin III Respublika toplantısında ölkəmizin bütün şəhər və rayonlarından ümumilikdə 500-dən artıq istedadlı gənc iştirak edib.

# Bakıda XXIV Azərbaycan Beynəlxalq İnşaat “BakuBuild Azerbaijan” sərgisi açılıb

Oktyabrın 23-də Bakı Ekspo Mərkəzində XXIV Azərbaycan Beynəlxalq “İnşaat” (“BakuBuild Azerbaijan 2018”), XI Beynəlxalq “İstilik, havalandırma, kondisionerləşdirilmə, su təchizatı, santexnika və üzgüçülük hovuzu” (“Aquatherm Baku 2018”), Xəzər Beynəlxalq “Mebel, interyer və dizayn” (“Caspian MebelExpo 2018”) sərgilərini ehtiva edən “Xəzər inşaat həftəsi”nin açılışı olub. Sərgilərdə dünyanın 22 ölkəsindən 301 şirkət iştirak edir.







AZƏRTAC xəbər verir ki, sərginin açılış mərasimində çıxış edən iqtisadiyyat nazirinin müavini Niyazi Səfərov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə sahibkarlığın inkişafı, əlverişli biznes mühitinin yaradılması istiqamətində kompleks tədbirlərin həyata keçirildiyini vurğulayıb.

Nazir müavini diqqətə çatdırıb ki, son illər respublikada aparılan sənayeləşmə siyasəti nəticəsində 100-lərlə müasir sənaye müəssisəsi və mühüm obyektlər yaradılıb, ixracın həcmi yüksəlib. Eyni zamanda, qeyri-neft sektorunun inkişafı sahəsində ciddi uğurlar əldə edilib.

Qeyd olunub ki, XXIV Azərbaycan Beynəlxalq İnşaat sərgisində Azərbaycan şirkətləri də çoxluq təşkil edir. Bu şirkətlər öz məhsullarını “Made in Azerbaijan” brendi ilə təqdim edir. Bu isə ölkəmizin iqtisadi sahədə qazandığı nailiyyətlərin bariz nümunəsidir.

Nazir müavini deyib ki, hər il Bakıda keçirilən inşaat sərgisi tikinti sektoruna olan marağı əks etdirməklə, şirkətlər arasında əlaqələrin qurulmasına xidmət edən çox mühüm bir tədbirdir.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədr müavini Dövlətxan Dövlətxanov bildirib ki, “BakuBuild Azerbaijan” yerli və xarici şirkətləri cəlb etməklə böyük uğurlara imza atıb. Onun sözlərinə görə, inşaat sektoru iqtisadiyyatın digər sahələrinin təkmilləşməsi üçün birləşdirici rol oynayır: “Sərgidə nümayiş olunan yeni müasir texnika və inşaat materialları ilə tanış olmaq sərgi iştirakçıları üçün faydalı olacaq. Hər il keçirilən və dünyanın bir çox şirkətlərinin iştirak etdiyi “BakuBuild Azerbaijan” sərgisi ölkəmizin həyatında artıq öz yerini tutaraq əlamətdar hadisəyə çevrilib”.

Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin rəis müavini Elxan Əsədov inşaat sektorunun inkişafını müasir istehsal modellərinin dinamikası ilə müqayisəli şəkildə təhlil edib. “BakuBuild Azerbaijan” sərgisinin inşaat, memarlıq və layihələndirmə sahəsində bütövlükdə region üçün ən mühüm peşəkar tədbir olduğunu vurğulayıb.

Memarlar İttifaqının katibi Fərhad Mollazadə qeyd edib ki, dünya praktikasına uyğun olaraq, Azərbaycanda inşaat sektoru bütün ölkə iqtisadiyyatının uğurlarını əks etdirir. Bir sıra beynəlxalq layihələrin tətbiqi, ən yaxşı memarlıq layihələrinin reallaşdırılması ölkənin dinamik inkişafının sübutudur. Sərgi bu inkişafı nümayiş etdirmək üçün hərəkətverici qüvvədir.

“Iteca Caspian” şirkətinin baş direktoru Edvard Stroon məlumat verib ki, sərgi regionda iştirakçıların sayına görə qeyri-neft sektorunun ən böyük sərgi tədbiridir. Sərgi tikinti və memarlıq, layihələndirmə və təmir sahəsində bütün regionun ən mühüm peşəkar tədbiri hesab olunur. Hər il bir sıra dünya ölkələrini təmsil edən minlərlə mütəxəssis bu sərgini ziyarət edir və burada biznes tərəfdaşları ilə əlaqə yaradır.

Çıxışının sonunda E.Stroon verdikləri dəstəyə görə İqtisadiyyat Nazirliyi, Dövlət Memarlıq və Şəhərsalma Komitəsi, Mənzil İnşaatı Dövlət Agentliyi, Memarlar İttifaqı, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasına (ASK) minnətdarlığını bildirib.

Bu il Almaniya, Polşa, İtaliya və Rusiya “İnşaat” sərgisində milli qruplar ilə təmsil olunur. Udmurtiya və Tümen diyarlarını təmsil edən şirkətlər sərgidə debüt edir. “BakuBuild Azerbaijan 2018” sərgisi inşaat materialları, döşəmə örtükləri, keramika, üzlük daş, mərmər, qapı-pəncərə, interyer üçün məhsulların bütün çeşidlərini əhatə edir. Lak-boya sektoru və dam materialları həm yerli, həm də xarici şirkətlər tərəfindən geniş təqdim edilir.

“BakuBuild Azerbaijan”, “Caspian MebelExpo”, “Aquatherm Baku” və “Securika Caspian” sərgilərinin təşkilatçısı qismində “Iteca Caspian” şirkəti çıxış edir. Sərgilər oktyabrın 26-dək davam edəcək.

Ədliyyə orqanları - 100

# Ədliyyə Nazirliyində "açıq qapı" günü keçirilib

**Prezident İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etdiyi 2018-ci il həm də Azərbaycan ədliyyəsinin 100 illiyi ilə əlamətdardır.**

Bayram münasibətilə ədliyyə orqanları tərəfindən çoxsaylı tədbirlər, yığıncaqlar, ədliyyənin tarixinə və müasir fəaliyyətinə dair ictimai təqdimatlar təşkil olunur, ədliyyə işçiləri və hakimlər tərəfindən mətbuatda silsilə çıxışlar edilir, kütləvi idman, xeyriyyə, o cümlədən ağacəkmə aksiyaları keçirilir.

Oktyabrın 23-də yubiley tədbirləri çərçivəsində Ədliyyə Nazirliyinin elektron sistemləri, informasiya resursları və ədliyyə sahəsində əhaliyə göstərilən elektron xidmətlər barədə "açıq qapı" günü keçirilib. Tədbirdə Ədliyyə Nazirliyinin məsul işçiləri, xarici dövlətlərin ölkəmizdəki səfirliklərinin, beynəlxalq təşkilatların, vətəndaş cəmiyyətinin və medianın nümayəndələri iştirak ediblər.





Bildirilib ki, Azərbaycan ədliyyəsi ölkəmizin hərtərəfli inkişafına uyğun olaraq islahatlar aparılmaqla təkmilləşir və müasirləşir. Ədliyyə orqanlarının fəaliyyətində şəffaflığın artırılması, açıq hökumət prinsiplərinin təşviqi, vətəndaş məmnunluğunun yüksəldilməsi, əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin artırılması ilə bağlı mühüm tədbirlər həyata keçirilir.

Həmçinin ədliyyə sahəsindəki yeniliklərdən bəhs olunaraq nazirlik tərəfindən aparılan 14 informasiya sistemi və onların funksiyaları, 22 dövlət orqanının 30-dan çox informasiya resursu ilə inteqrasiyası, ədliyyə fəaliyyəti ilə bağlı əhaliyə göstərilən 31 elektron xidmətdən istifadələrin sayının ötən dövrdə 11 milyonu ötməsi barədə məlumat verilib, təqdimat keçirilib.

Tədbir iştirakçıları vətəndaş cəmiyyəti institutlarının fəaliyyəti üçün əlverişli mühitin yaradılması, ictimai iştirakçılığın genişləndirilməsi, qeyri-hökumət təşkilatlarının "Fərdi elektron pəncərə" elektron məlumat sistemi və bu sahədə tətbiq olunan yeniliklərlə tanış olublar.

Eyni zamanda vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı, xüsusilə ailə institutunun möhkəmləndirilməsi ilə bağlı qeydiyyat şöbələrində QHT-lərin dəstəyi ilə psixoloqlar cəlb edilməklə mediasiya xidmətinin göstərilməsi, həmçinin notariat kontorlarını vahid şəbəkədə birləşdirən "Elektron notariat" informasiya sisteminin tətbiqi maraqla qarşılanıb. Notariat sənədlərinin həqiqiliyinin yoxlanılması üçün sistem, elektron apostil, notariat arxivinin elektronlaşdırılması kimi innovativ layihələrin təqdimatı keçirilib, səyyar qaydada notariat hərəkətlərinin rəsmiləşdirilməsi üçün zəruri avadanlıqların kompakt şəkildə yerləşdirildiyi xüsusi elektron çantalar, video əlaqə vasitəsi ilə notariat hərəkətlərinin və ədliyyə fəaliyyətinə aid digər əməliyyatların aparılmasına imkan verən elektron köşk nümayiş olunub.

İctimai xidmətlərin müasir modeli olan Azərbaycan brendi "ASAN xidmət" çərçivəsində, həmçinin notariat və qeydiyyat sahəsində əhaliyə səmərəli xidmətlər göstərildiyi qeyd edilərək, həmin mərkəzlərdə verilən sənədlərin böyük hissəsinin ədliyyə qurumlarının payına düşməsi vurğulanıb.

Ədliyyə naziri yanında İctimai Komitənin üzvləri və vətəndaş cəmiyyətinin digər nümayəndələri çıxış edərək ədliyyə fəaliyyətinin təkmilləşdirilməsi üzrə görülən tədbirləri yaxından izlədiklərini, tətbiq olunan elektron və informasiya sistemlərinin, e-xidmətlərin ədliyyə qurumlarına əlçatanlığın asanlaşmasına, həmçinin digər dövlət qurumları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı fəaliyyətin səmərəliliyinə xidmət etdiyini vurğulayıblar.

Sonda iştirakçıları maraqlandıran suallara aydınlıq gətirilib, maraqlı diskussiya keçirilərək faydalı fikir mübadiləsi aparılıb.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Məhkəmə-hüquq sistemi uğurla təkmilləşdirilir

## Azərbaycan ədliyyəsinin davamlı inkişafı Prezident İlham Əliyevin təşəbbüsü ilə aparılan genişmiqyaslı islahatların real təzahürüdür

**Çoxəsrlik dövlətçilik ənənəsi olan Azərbaycan Respublikasının ədliyyə sisteminin xalqımızın müstəqillik uğrunda mübarizəsini, onun şanlı keçmişini əks etdirən zəngin tarixi var. Hər bir cəmiyyətdə dövlətin idarə olunmasında ədliyyə sisteminin rolu bilavasitə mövcud siyasi rejimin xarakterindən asılıdır. Mahiyyət etibarı ilə dövlətin hüquq siyasətinin formalaşdırılması və həyata keçirilməsində, hüququn aliliyinin, insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunmasında, milli qanunvericiliyin formalaşdırılmasında əsas rol oynayan ədliyyə sistemi yalnız demokratik cəmiyyətdə, hüquqi dövlətdə bu funksiyalarını həyata keçirə bilər.**

Məhz bu baxımdan Azərbaycan ədliyyəsinin inkişaf yolu bir neçə tarixi mərhələdən keçmişdir. Şərqin ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyətində ədliyyə fəaliyyətinə xüsusi əhəmiyyət verilərək, Ədliyyə Nazirliyi dövlətimizin yarandığı gün - 1918-ci il may ayının 28-də təsis edilmiş, təcrübəli dövlət xadimi Xəlil bəy Xasməmmədov ilk ədliyyə naziri təyin olunmuş və həmin ilin noyabr ayının 22-də nazirliyin Əsasnaməsi təsdiq edilərək onun funksiya və səlahiyyətləri müəyyən olunmuşdur.

Ədliyyə tariximizdə unudulmaz hadisələrlə yanaşı, keşməkeşli səhifələr də olmuşdur. 1920-ci ildə ölkə işğal edildikdən sonra milli dövlətçiliyin əsas sütunlarından olan Ədliyyə Nazirliyi ləğv edilmiş, Xalq Ədliyyə Komissarlığı yaradılaraq, onun səlahiyyətlərinə qanunvericilik layihələrinin hazırlanması, məhkəmə işçilərinin seçilməsi, təlimatlandırılması və onlara inzibati rəhbərlik edilməsi, qanunçuluğa ali nəzarət və istintaqın aparılması daxil edilmişdir. Lakin 1930-cu ildə Xalq Ədliyyə Komissarlığı ləğv edilərək onun funksiyaları prokurorluq, Ali Məhkəmə, Mərkəzi İcraiyyə Komitəsinə və digər orqanlara verilmişdir. 1933-cü ildə Xalq Ədliyyə Komissarlığı yenidən təşkil edilmiş, onun səlahiyyətinə qanun layihələrinin hazırlanması, qanunların şərhi, məhkəmə kadrlarının hazırlanması, əhaliyə hüquqi yardımın təşkili, penitensiar sistemin idarə olunması, Ali Məhkəməyə, Dövlət Prokurorluğuna və vəkillərə rəhbərlik etmək funksiyaları daxil edilmişdir. 1937-ci ildə Xalq Ədliyyə Komissarlığının yeni Əsasnaməsi təsdiq edilmiş, onun səlahiyyətləri xeyli məhdudlaşdırılmış, əsas fəaliyyət sahəsi məhkəmə və notariat orqanlarının işinin təşkili və onlara rəhbərlik etməkdən ibarət olmuşdur. 1959-cu ildə Ədliyyə Komissarlığı yenidən ləğv edilmiş, məhkəmə orqanlarının fəaliyyətinə rəhbərlik və nəzarət, məhkəmə statistikasının aparılması Ali Məhkəməyə həvalə edilmiş, digər səlahiyyətləri Nazirlər Soveti yanında hüquq komissiyası və ayrı-ayrı dövlət orqanları arasında bölüşdürülmüşdür. Ədliyyə sisteminin sabit funksiya və struktura malik olmaması onun inkişafına ciddi əngəllər törətmişdir.

Ədliyyə Nazirliyinin yenidən və əsaslı surətdə yaradılması ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. Belə ki, 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis edilmiş, bununla da Azərbaycan ədliyyə tarixində yeni mərhələ başlanmışdır. Həmin dövrdən Ədliyyə Nazirliyi sabit fəaliyyət göstərərək Ali Məhkəmədən başqa bütün məhkəmə orqanlarına təşkilati rəhbərliyi və məhkəmə idarəçiliyini həyata keçirmiş, əhaliyə hüquqi yardımı, notariat fəaliyyəti və məhkəmə ekspertizasının aparılmasını, hüquqi biliklərin təbliğini təmin etmişdir. 1972-ci ildə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edilmiş, ədliyyə sisteminin yeniləşən fəaliyyətini tənzimləyən mühüm normativ sənədlər qəbul edilmiş, ən əsası isə ədliyyə işinin gələcək inkişafı üçün hərtərəfli zəmin yaradılmışdı.

Ədliyyənin inkişafına xüsusi diqqət böyük öndər Heydər Əliyevin müstəqil Azərbaycanın rəhbərliyinə qayıdışından sonra da davam etdi. Azərbaycan Respublikası müstəqilliyini elan etdikdən sonra yenə də, ümummilli lider Heydər Əliyev tərəfindən onun gələcək inkişaf istiqamətləri müəyyən edildi. Ölkənin həm siyasi, həm iqtisadi, həm də hüquq sistemini uğurla müəyyənləşdirən ulu öndər 1995-ci ildə müstəqil respublikanın əsas qanununun - Konstitusiyanın qəbulunda misilsiz xidmətlər göstərdi. Həmin ildən etibarən Azərbaycan Respublikası demokratik, dünyəvi və hüquqi dövlət olduğunu rəsmən bütün dünyaya elan etdi. Məhz bu tarixi hadisədən sonra ölkədə məhkəmə-hüquq islahatlarına rəvac verildi.

Hüquq sistemində inqilabi demokratik dəyişikliklərə səbəb olan məhkəmə-hüquq islahatı çərçivəsində Ədliyyə Nazirliyinin funksiya və səlahiyyətləri genişləndirildi. Məhz Heydər Əliyevin rəhbərliyi nəticəsində 1993-2003-cü illərdə hüquqi dövlət quruculuğu prosesində yaxından iştirak edən ədliyyə orqanlarının inkişafına daim qayğı göstərildi, ədliyyə fəaliyyətinin müasir qanunvericiliyin tələbləri səviyyəsində qurulması məqsədilə müvafiq struktur dəyişiklikləri aparıldı, yeni qurumlar yaradıldı, onların işinin təşkili üzrə zəruri tədbirlər görüldü. Bütün bunların nəticəsində ədliyyə orqanlarının cəmiyyətdəki rolu daha da yüksəldi. Ümummilli liderin bilavasitə sədrliyi ilə Hüquqi İslahat Komissiyası yaradıldı və qısa müddət ərzində keçmiş sovetlər birliyindən miras qalmış ölkənin hüquq sistemi demokratik prinsiplər əsasında tamamilə yenidən quruldu, hüquq sisteminin fəaliyyətini tənzimləyən bütün əsas qanunlar və məcəllələr beynəlxalq hüquq normalarının tələbləri nəzərə alınmaqla yenidən qəbul edildi. Həyata keçirilən islahatlar çərçivəsində ədliyyə işinin müasir tələblər səviyyəsinə qaldırılması üçün əsaslı tədbirlər görüldü, Ədliyyə Nazirliyinin üzərinə yeni mühüm vəzifələr qoyuldu. Ölkəmizdə insan haqlarının əsil müdafiəsinə xidmət edən müstəqil məhkəmə hakimiyyətinin formalaşmasına xüsusi diqqət yetirilərək 2000-ci ildə ilk dəfə hakimlərin test üsulu ilə seçimi keçirildi, həmin ilin sentyabr ayından isə yeni 3 pilləli məhkəmə sistemi fəaliyyətə başladı. Görülmüş tədbirlər nəticəsində Azərbaycan ədliyyəsi beynəlxalq norma və prinsiplərə uyğun olan inkişaf yoluna qədəm qoydu, onun çoxşaxəli fəaliyyətinin tənzimlənməsi üçün normativ sənədlər qəbul edildi. Ədliyyə işçilərində və hakimlərdə mənəvi stimul yaradılması məqsədilə ümummilli lider Heydər Əliyevin 2000-ci il 11 noyabr tarixli Sərəncamı ilə 22 noyabrın - 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edildiyi gün ədliyyə işçilərinin peşə bayramı günü kimi təsis olundu.

Ulu öndər Heydər Əliyevin hüquq siyasətini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin insan haqlarının etibarlı qorunması, hüquqi xidmətin yaxşılaşdırılması, ədalət mühakiməsinin səmərəliliyinin artırılması barədə tapşırıqlarının icrası üzrə görülmüş tədbirlər nəticəsində Azərbaycan ədliyyə sistemi öz inkişafının yeni, müasir mərhələsinə qədəm qoymuşdur. Ədliyyə fəaliyyətinin normativ hüquqi əsasları təkmilləşdirilmiş, 2006-cı ildə ölkə Prezidenti tərəfindən nazirliyin yeni Əsasnaməsi təsdiq olunaraq cəmiyyətdə mühüm rolu təsbit edilmiş, ona hüquq-mühafizə orqanı statusu verilmişdir. Görülən işlər nəticəsində fəaliyyətinin əsasları ulu öndər tərəfindən yaradılmış Ədliyyə Nazirliyi dövlət orqanları sistemində çox nüfuzlu bir quruma çevrilmişdir və onun səlahiyyət dairəsi getdikcə genişlənir. Həmçinin ölkə Prezidenti tərəfindən 2006-cı ildə "Ədliyyə orqanlarının inkişafı haqqında", məhkəmə sisteminin fəaliyyətinin müasirləşdirilməsi barədə proqram xarakterli fərmanların imzalanması, dövlət başçısının qanunvericilik təşəbbüsü əsasında "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Məhkəmə-Hüquq Şurası haqqında" qanunların qəbul olunması Azərbaycan ədliyyəsinin inkişafında yeni mərhələ olmuşdur. 2001-ci ildə ümummilli lider Heydər Əliyevin fərmanı ilə məhkəmə tibb ekspertizasından başqa bütün növ ekspertizaların aparılması Ədliyyə Nazirliyinə həvalə olunmuşdur. İşə qəbulun şəffaf üsullarla həyata keçirilməsi məqsədilə 2004-cü ildən nazirliyin müxtəlif qurumlarına işə qəbul açıq müsabiqə əsasında keçirilməyə başlanmış və yaranmış müsbət təcrübə əsas götürülməklə ölkə başçısının 13 dekabr 2007-ci il tarixli fərmanı ilə işə qəbulun yeni qaydaları müəyyən olunmuşdur. Ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər siyasətinə uyğun olaraq gənclərin ədliyyə orqanlarında işlə təminatı daim diqqətdə saxlanılır, onlara xüsusi qayğı ilə yanaşılır. Hazırlıqlı hüquqşünaslar müsabiqədən keçərək artıq ədliyyə orqanlarına qulluğa qəbul edilmişlər və uğurlu fəaliyyət göstərirlər. Bu sahədə görülən tədbirlər sırasında ölkə Prezidentinin fərmanı ilə ədliyyə sahəsində çalışan çoxminli kollektivin və digər hüquqşünas kadrların tədrisinə xidmət edəcək yüksək statuslu tədris ocağının - Ədliyyə Akademiyasının təsis olunması xüsusi qeyd olunmalıdır. Yeri gəlmişkən, nəzəri bilik və peşə hazırlığının artırılması, peşəkar mütəxəssis kimi püxtələşmələri məqsədilə ədliyyə işçiləri və digər hüquqşünaslar Ədliyyə Akademiyasında silsilə tədris tədbirlərinə, o cümlədən beynəlxalq təşkilatlarla birgə keçirilən layihələr çərçivəsində treninqlərə, ixtisasartırma kurslarına cəlb olunmuşlar.

26 may və 17 avqust 2006-cı il tarixlərində dövlət başçısı tərəfindən müvafiq fərmanlar imzalanmaqla "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" və "Ədliyyə orqanlarının inkişafı haqqında" qanunlar qəbul olunmuşdur. "Açıq hökumət" prinsiplərinin ədliyyə sistemində geniş tətbiqi, nazirliyin internet saytlarının interaktiv rejimdə fəaliyyəti, ədliyyə saytlarının mobil versiyalarının istifadəyə verilməsi, əhaliyə göstərilən elektron xidmətlər də ədliyyə fəaliyyətində şəffaflığın artırılmasına yönələn mühüm tədbirlərdəndir. Ədliyyə sahəsində baş verən keyfiyyətcə yeni dəyişikliklər Ədliyyə Nazirliyinin işinin və strukturunun daha da təkmilləşdirilərək bu dəyişikliklərə uyğun qurulması, fəaliyyətinin daha şəffaf və aşkar təmin olunması, əhalinin hüquqi yardıma tələbatının daha optimal şəkildə təmin olunması üçün tədbirlər görülməsi zərurəti yaratmışdır.

Eyni zamanda, hər bir demokratik cəmiyyətdə müstəsna əhəmiyyət kəsb edən məhkəmə hakimiyyətinin müstəqilliyinə xidmət edən islahatlar nəticəsində mühüm nailiyyətlər qazanılmışdır. Məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsinə xüsusi önəm verən dövlət başçısının rəhbərliyi ilə bu sahədə aparılan islahatlar, məhkəmə hakimiyyətinin müstəqil özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurasının səlahiyyətlərinin xeyli genişləndirilməsi, hakimlərin ən şəffaf seçimi, Dünya Bankı ilə birgə əməkdaşlıqda məhkəmə infrastrukturunun müasirləşdirilməsi, "Elektron məhkəmə" informasiya sisteminin və müasir İKT-lərin geniş tətbiqi məhkəmələrin müstəqilliyini, şəffaflığını və əlçatanlığını daha da artırır. Məhkəmə hakimiyyətində mənəvi cəhətdən saf şəxslərin təmsil olunması, hakim adına və nüfuzuna xələl gətirən şəxslərin məhkəmə sistemindən kənarlaşdırılması üzrə ardıcıl tədbirlər görülmüş, birinci instansiya və apelyasiya məhkəmələrinin hakimlərinin fəaliyyəti prinsipial qiymətləndirilmişdir. Ədalət mühakiməsinə çıxışın xeyli asanlaşması nəticəsində məhkəmələrin iş yükünün artması nəzərə alınaraq bu sahədə beynəlxalq təcrübə öyrənilmiş, mülki xarakterli işlərin məhkəmədən kənar həlli yolları axtarılmış, mediasiya institutunun yaradılması məqsədilə bir sıra addımlar atılmışdır. Məhkəmə islahatları, o cümlədən tətbiq olunan yeniliklər beynəlxalq aləmdə böyük maraq doğurur və əldə olunan uğurlar təqdir edilir. Belə ki, Avropa Şurası dövri nəşrlərində bu sahədəki işlərimizin işıqlandırılmasına xüsusi yer ayırır, Azərbaycanda hakimlərin seçim prosedurunu şəffaflığı və obyektivliyinə görə digər dövlətlər üçün örnək kimi dəyərləndirir. Həmçinin avropalı ekspertlər ədalət mühakiməsi sistemində səmərəli islahatların aparılması, məhkəmələrin unikal infrastrukturunun yaradılması, müasir informasiya texnologiyalarının və yeniliklərin tətbiqində Azərbaycanın bir çox Avropa ölkələrinə nümunə olduğunu qeyd edirlər.

Azərbaycan ədliyyəsinin davamlı inkişafı üzrə görülən tədbirlər və qazanılan nailiyyətlər möhtərəm Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə aparılan genişmiqyaslı islahatların real təzahürüdür. Belə ki, regionlarda məhkəmələr üçün yeni binaların istifadəyə verilməsi vətəndaşların hüquqlarının daha etibarlı təmin olunmasına xidmət edir. Dövlət başçısının rəhbərliyi ilə məhkəmə sisteminin təkmilləşdirilməsi, əhalinin məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması üçün genişmiqyaslı islahatlar aparılır, müasir məhkəmə infrastrukturu yaradılır. Azərbaycan Hökumətinin Dünya Bankı ilə birgə maliyyələşdirdiyi "Ədliyyə sisteminin müasirləşdirilməsi" layihəsi çərçivəsində 2015-ci ildə yeni, müasir Şəki Məhkəmə Kompleksinin açılışı olmuşdur. Burada yaradılan şərait göstərir ki, son illərdə ölkədə bütün sahələrə olduğu kimi, ədalət mühakiməsinin səmərəsinin artırılmasına da xüsusi diqqət yetirilir. Regionlarda əhalinin məhkəmələrə müraciət imkanları asanlaşır, vətəndaşlara göstərilən hüquqi yardımın keyfiyyəti və səmərəsi yüksəlir. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, məhkəmə sisteminin daha da müasirləşdirilərək beynəlxalq standartlara tam uyğunlaşdırılması işləri uğurla aparılır.

Avropa Şurasının Ədalət mühakiməsinin səmərəliliyi üzrə Komissiyası (CEPEJ) Avropa hüquq sistemləri üzrə hesabatında respublikamızda məhkəmə islahatlarına göstərilən diqqətin, o cümlədən maliyyə ayırmalarının səviyyəsini, hakimlərin sayındakı artım tempini Avropa dövlətləri sırasında yüksək göstəricilərlə xarakterizə etmiş, həmçinin məhkəmələrdə informasiya və kommunikasiya texnologiyalarının tətbiqi sahəsində ölkəmizin səylərini yüksək dəyərləndirmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəyə rəhbərliyi zamanı xalqımızın gələcəyinə yönələn və hərtərəfli inkişafı təmin edən islahatlar, mühüm sosial, iqtisadi infrastruktur layihələr uğurla davam etdiriləcək, bundan sonra da müasir tariximizin daha möhtəşəm, şanlı səhifələri yazılacaq, daha yüksək zirvələr fəth ediləcəkdir. Müasir Azərbaycanda hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin inkişafı çevik və uzaqgörən dövlət idarəçiliyinin həyata keçirilməsinin bəhrəsidir. Ölkəmizdə ədliyyə sisteminin səmərəli inkişafı da dövlət başçısının rəhbərliyi ilə cəmiyyətimizin yeni qlobal çağırışlara uyğun inkişaf etdirilməsi, sosial-iqtisadi və mədəni inkişafının təmin olunması ilə üzvü əlaqədə baş verir. Tətbiq olunan yeniliklərin hər biri xalqımızın mənafeyinə, vətəndaşlarımızın rifahının yüksəldilməsinə xidmət edir. Ölkə vətəndaşları bunu öz gündəlik həyatlarında açıq-aşkar hiss edir, qiymətləndirirlər. Bütün bunlar isə builki yubileyimizə əlavə bayram qataraq, ədliyyə işçilərinin ikiqat sevincinə səbəb olmaqla yanaşı, xalqımızda yüksək iftixar hissi doğurur. Peşə bayramlarını böyük ruh yüksəkliyi ilə qeyd edən ədliyyə işçiləri ölkəmizin müasir inkişafına uyğun olaraq öz vəzifələrini hər zaman layiqincə yerinə yetirmək, daha məsuliyyətlə çalışmaq əzmindədirlər.

Hər il noyabr ayının 22-də ədliyyə işçiləri öz peşə bayramlarını böyük ruh yüksəkliyi ilə qeyd edirlər. Müstəqil dövlətimizin banisi, dahi öndər Heydər Əliyevin ədliyyə işçilərinə bəxş etdiyi peşə bayramı bu il xüsusilə əlamətdardır - ədliyyə sistemi həm də 100 illik yubileyini qeyd edir. Bir əsr ömür dəf edən Azərbaycan ədliyyəsinin zəngin və keşməkeşli tarixini öyrənmək, müsbət ənənələri yaşatmaq, kadrları, xüsusilə kadrların gənc nəslini bu ənənələr ruhunda tərbiyə etmək bizim tarixi vəzifəmizdir.

Bu gün bütün ədliyyə sistemində bayram ab-havası yaranır, Azərbaycan ədliyyəsinin keçdiyi şanlı tarixə nəzər salınır, ədliyyə veteranları və gənc mütəxəssislərlə görüşlər, yığıncaqlar keçirilir, bayram tədbirləri təşkil olunur. Ədliyyə işçiləri ulu öndərin müəyyən etdiyi dövlətçilik amallarına daim sadiq qalaraq ölkəmizin daha da inkişafı və qüdrətlənməsi naminə möhtərəm Prezidentə layiqli yardımçı olmaq üçün bundan sonra da yüksək əzmlə çalışacaqlar.

***Mahir ƏSƏDLİ,***
***Şəki Apelyasiya Məhkəməsinin hakimi***

# Kütləvi informasiya vasitələrinə bir daha xəbərdarlıq edildi

Azərbaycan Respublikasının Baş Prokurorluğu ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin sabiq şöbə rəisi Vüsal Ələkbərovun cəzaçəkmə müəssisəsindən guya vaxtından əvvəl azadlığa buraxılması ilə bağlı bəzi KİV-də yayılan və həqiqəti əks etdirməyən informasiyalarla bağlı məlumat yayıb.

Baş Prokurorluğun mətbuat xidmətinin AZƏRTAC-a daxil olan məlumatında deyilir: "Bəzi kütləvi informasiya vasitələrində ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin sabiq şöbə rəisi Vüsal Ələkbərovun cəza çəkdiyi cəzaçəkmə müəssisəsindən guya vaxtından əvvəl azadlığa buraxılması və ya məntəqə tipli cəzaçəkmə müəssisəsinə keçirilməsi barədə informasiyalar yayılıb.

Həmin məlumatlar həqiqəti əks etdirmədiyindən Baş Prokurorluq tərəfindən qəti şəkildə təkzib olunur.

Belə ki, rüşvətalma, hədə-qorxu ilə tələbetmə və sair faktlarla bağlı Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində istintaqı tamamlanmış cinayət işi üzrə məhkəmə tərəfindən azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş Vüsal Ələkbərov hazırda Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müvafiq cəzaçəkmə müəssisəsində azadlıqdan məhrumetmə cəzasını çəkir.

Kütləvi informasiya vasitələrinə bir daha xəbərdarlıq edilməklə, bu kimi halların təkrarlanmaması və həqiqətə uyğun olmayan məlumatların gələcəkdə yayılmaması məqsədilə məlumatları dərc etməzdən əvvəl informasiyanın düzgünlüyünün hüquq-mühafizə orqanlarının, o cümlədən Baş Prokurorluğun mətbuat xidmətləri ilə dəqiqləşdirmələri xahiş olunur".

# Ermənistan silahlı qüvvələrinin bölmələri iriçaplı pulemyotlardan istifadə etməklə atəşkəs rejimini 29 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 29 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Nəmirli, Qaraqaşlı, Kəngərli, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Ali Məclisdə görüş

Oktyabrın 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Asiya İnkişaf Bankının vitse-prezidenti Vençay Janq ilə görüşüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin Sədri Azərbaycan Respublikası Hökuməti və Asiya İnkişaf Bankı arasında bağlanmış kredit sazişinə əsasən Naxçıvan şəhərində həyata keçirilmiş “Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı” layihəsinin uğurla başa çatması münasibətilə Vençay Janqı təbrik edib.

Ali Məclisin Sədri deyib ki, layihə çərçivəsində 350 kilometr içməli su və 332 kilometr kanalizasiya şəbəkəsi çəkilib, 135 min nəfər standartlara uyğun içməli su ilə təmin olunub. Həmçinin layihədən qənaət olunmuş vəsait hesabına 3 yaşayış məntəqəsində də içməli su və kanalizasiya şəbəkəsi qurulub. Ali Məclisin Sədri dövlət vəsaiti hesabına muxtar respublikanın digər rayon və şəhərlərində də içməli su və kanalizasiya sistemlərinin qurulduğunu diqqətə çatdırıb.

Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Asiya İnkişaf Bankı ilə əlaqələri bundan sonra da davam etdirməkdə maraqlı olduğunu bildirən Ali Məclisin Sədri qurulan səmərəli əməkdaşlığa görə Asiya İnkişaf Bankının vitse-prezidentinə təşəkkür edib.

Asiya İnkişaf Bankının vitse-prezidenti Vençay Janq səmimi qəbula görə minnətdarlıq edib və muxtar respublikaya səfərindən məmnunluğunu bildirib. Asiya İnkişaf Bankının ölkəmizdə 20 ilə yaxındır fəaliyyət göstərdiyini və müxtəlif layihələrin həyata keçirildiyini qeyd edən vitse-prezident Asiya İnkişaf Bankı ilə Azərbaycan arasında 2019-2023-cü illər üçün əməkdaşlıq strategiyasının hazırlandığını diqqətə çatdırıb.

Qonaq muxtar respublikaya səfərinin layihə çərçivəsində görülən işlərin və Asiya İnkişaf Bankı ilə Naxçıvan Muxtar Respublikası arasında gələcək əməkdaşlıq imkanlarının müzakirəsi üçün geniş imkanlar açdığını bildirib.

Sonda xatirə şəkli çəkdirilib.

# Fransa səfiri Azərbaycanın Xarici İşlər Nazirliyinə çağırılıb

Fransanın ölkəmizdəki səfiri Azərbaycanın Xarici İşlər Nazirliyinə çağırılıb. Bu barədə AZƏRTAC-a nazirliyin mətbuat xidmətindən məlumat verilib.

Səfirə Fransa nümayəndələrinin Azərbaycanın maraqlarına, onun suverenliyinə və ərazi bütövlüyünə toxunan bir sıra addımları, o cümlədən bu yaxınlarda Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsinə Fransanın Sent-Etyen şəhərinin meri və Arnuvil bələdiyyəsinin rəhbəri tərəfindən edilmiş qanunsuz səfərlərlə bağlı rəsmi etiraz bildirilib.

Fransa nümayəndələrinin bu kimi addımlarına hüquqi və siyasi qiymətləndirmə verilib. Fransa hökuməti bu ölkənin fiziki və hüquqi şəxslərinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş fəaliyyətinin qarşısının alınması üçün effektiv tədbirlər görməyə çağırılıb və qarşı tərəfə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin rəsmi notası təqdim olunub.

# İndi kəndlinin bərəkətli torpağı, bol suyu, rahat yolu var



***Əvvəli 1-ci səh.***

Son 15 ildə Azərbaycanda 4 min kilometrə yaxın yeni suvarma kanalları, 2700 kilometr uzunluğunda kollektor-drenaj şəbəkələri yaradılıb. Taxtakörpü, Şəmkirçay, Tovuzçay su anbarlarının istifadəyə verilməsi bir çox ərazilərin su təchizatı və meliorasiya vəziyyətini yaxşılaşdırıb, minlərlə hektar su dəyməyən torpaqlara su verilib. Araz çayının yeni qol-kanalının istifadəyə verilməsi bu tədbirlərin davamlı olduğunu təsdiqləyir.

Araz çayının yeni qol-kanalının tikintisi böyük maliyyə vəsaiti hesabına başa gələn layihədir. Bu layihəyə birinci mərhələdə 80 milyon manat sərmayə qoyulub. Yeni beton su kanalı 53 min hektar torpağı su ilə təmin edəcək. Bundan Biləsuvar, İmişli və Sabirabad rayonlarının zəhmətkeşləri bəhrələnəcəklər. Növbəti mərhələdə isə 10 min hektar torpağa suyun verilməsi nəzərdə tutulur. Beləliklə, yaxın gələcəkdə Sabirabad rayonunun torpaqları da suvarma suyu alacaq. Odur ki, Araz çayının yeni qol-kanalının istifadəyə verilməsi fermerlərə, kənd adamlarına böyük hədiyyədir.

Obyektin açılışında Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Əhməd Əhmədzadə dövlət başçısına müraciət edərək hamının ürəyindən keçən bir fikri ifadə etmişdir: “Mən əvvəllər uzun müddət kənd təsərrüfatı sahəsində işləmişəm. İndi kənddə işləmək çox asandır. Siz kəndlinin torpağını da, suyunu da verirsiniz, başqa infrastrukturu da yaradırsınız, yolunu çəkirsiniz, hər şey edirsiniz, kəndliyə yalnız işləmək qalıb. Kəndli də işləyir və nəticələr yüksəlir. Ona görə də Azərbaycanda kənd təsərrüfatı sahəsində dinamik inkişaf heç vaxt dayanmayıb. Bu 15 il ərzində həmişə artım tempi olub”.

Bu artım, bu irəliləyiş İmişlinin timsalında da özünü göstərir. İndiyədək burada içməli su layihələri həyata keçirilib, 40-dan çox kənddə modul tipli təmizləyici qurğular quraşdırılıb. Rayonda qazlaşdırma 92 faizə çatıb. Geniş sosial infrastruktur yaradılıb. İdman Olimpiya Kompleksi, Gənclər Mərkəzi, Mərkəzi rayon xəstəxanası istifadəyə verilib, 25 məktəb əsaslı təmir edilib, yaxud yenidən tikilib.

Rayonda elektrik enerjisi ilə təchizat sahəsində heç bir problem yoxdur. Oktyabrın 22-də İmişlidə Avtomatik İdarəetmə və Nəzarət Mərkəzinin istifadəyə verilməsi isə rayonda enerji infrastrukturunun modernləşməsi istiqamətində daha bir uğurlu addımdır. Bu mərkəz elektrik enerjisinin alış nöqtəsindən istehlak nöqtəsinə qədər bütün mərhələlərdə şəbəkənin idarə olunmasını həyata keçirəcək. Bundan əlavə, yüksək və aşağı gərginlikli şəbəkələrdə fasiləsiz və keyfiyyətli elektrik enerjisinə nəzarətin təmin edilməsində və enerji ilə təchizatın səviyyəsinin yüksəldilməsində mühüm rol oynayacaq.

İstehsal sahəsində də işlər ürəkaçandır. Rayon ərazisindəki pambıqçılıq və taxılçılıq təsərrüfatlarında uğurlar əldə edilir. “MKT” İstehsalat Kommersiya MMC-nin İmişli filialının direktoru Oqtay Gülmalıyev qazanılan nailiyyətlər barədə danışarkən bildirib: “Müəssisəmizə dövlət qayğısı sayəsində 3800 hektar sahədə iri taxılçılıq təsərrüfatının yaradılmasına 5 milyon manat güzəştli kredit ayrılıb. Ümumilikdə 8,8 milyon manat olmaqla, fermerlərlə bağlanmış müqavilə əsasında 5200 hektarda pambıq, 800 hektar sahədə isə arpa və buğda əkilib. Taxıl sahələrində hər hektardan 45-55 sentner məhsul əldə edilib. Ona görə də şirkətimiz taxıl əkini sahələrinin genişləndirilməsini nəzərdə tutur”.

Mövsümün əvvəlindən indiyədək tarlalardan 10 min ton pambıq yığılıb. Məhsul isə hələ boldur və pambıqçılar hər hektardan 24 sentnerdən çox pambıq gözləyirlər.

Yetişdirilən məhsulun bazara daşınmasında, kənddə yaşayan əhalinin rahatlığının təmin olunmasında yolların əvəzsiz rolu var. Son dövrdə İmişlidə yol tikintisi də vüsət alıb. Kənd yollarının yarıya qədəri əsaslı şəkildə təmir edilib, yaxud yenidən çəkilib. Bakı-İmişli-Horadiz-Cocuq Mərcanlı istiqamətində ən yüksək standartlara uyğun yol istifadəyə verilib.

Dövlət başçısının İmişliyə səfəri çərçivəsində açılışını etdiyi yeni yollar da rayon camaatına böyük töhfə olmuşdur. Belə ki, Mingəçevir-Bəhrəmtəpə avtomobil yolunun 112 kilometrlik Qarağacı-Bəhrəmtəpə hissəsinin yenidən qurulması yekunlaşıb. Xatırladaq ki, Mingəçevir-Bəhrəmtəpə avtomobil yolu respublikanın regionları, o cümlədən Yevlax, Bərdə, Beyləqan rayonları arasında iqtisadi əlaqələrin, eləcə də turizmin, sosial inkişafın, nəqliyyat xərclərinin azaldılması baxımından mühüm əhəmiyyətə malikdir. Bununla yanaşı, həmin yol Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərini əlaqələndirən magistral olmaqla, tranzit xidmətlərinin səmərəsini artıracaq.

Yeni açılan İmişli-Otuziki-Qaraqaşlı avtomobil yolu da rayon əhalisinin sevincinə səbəb olub. Belə ki, bu yol 40 min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirir. Əvvəllər həmin ərazinin sakinləri çınqıl və torpaq örtüklü yolla gedib-gələrkən çox əziyyət çəkirdilər. Yolun yenidən qurulması ilə bu problemlər öz müsbət həllini tapıb.

İmişlidə artıq “ASAN xidmət” də fəaliyyət göstərəcək. Bu mərkəz 624 mindən çox vətəndaşa xidmət edəcək. Burada 10 dövlət orqanı tərəfindən sakinlərə 32 növ xidmətin göstəriləcəyi nəzərdə tutulub. Mərkəzdə eyni zamanda funksional yardımçı xidmətlər, məsələn, bank, sığorta, hüquqi yardım, tərcümə və digər xidmətlər təşkil ediləcək.

Azərbaycanın bütün bölgələrində istifadəyə verilən, o cümlədən bu günlərdə İmişlidə açılan yeni istehsal təyinatlı və sosialyönümlü obyektlər ölkəmizin güclü iqtisadi imkanlarının göstəricisidir. İmişlililər ilə görüşlər zamanı Prezident İlham Əliyevin dediyi kimi: “Bu gün Azərbaycan istənilən infrastruktur layihəsini uğurla icra edə bilər və icra edir... Bizim siyasətimiz ondan ibarətdir ki, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar, hər bir yerdə, hər bir rayonda, hər bir kənddə yaşayan vətəndaşlar işlə təmin olunsunlar, onların rifah halı yaxşılaşsın və dövlət bu istiqamətdə öz tədbirlərini görür”.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

# <u>Səməd SEYİDOV:</u> “Fransa bələdiyyə başçılarının Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfərləri birbaşa təxribatdır”

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Fransanın Alforvil, Valans və Sent-Etyen şəhərlərinin merlərinin Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərinə qanunsuz səfərləri ilə bağlı AZƏRTAC-a açıqlama verib.



### Fransada Azərbaycana qarşı qərəzli mövqe tutan xüsusi qrup fəaliyyət göstərir

Azərbaycan-Fransa münasibətlərinin ölkəmiz üçün önəmini qeyd edən Səməd Seyidov bildirib ki, iki ölkə arasındakı əlaqələr həm regionda sabitlik, həm də bölgənin inkişafı üçün böyük əhəmiyyət kəsb edir. Lakin təəssüf ki, son vaxtlar Fransanın bir neçə bələdiyyə rəhbəri tərəfindən Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfərlər həyata keçirilib və bununla da beynəlxalq hüququn norma və prinsipləri, eləcə də Azərbaycanın qanunları kobud şəkildə pozulub. Fransada Azərbaycana qarşı qərəzli mövqe tutan xüsusi bir qrup fəaliyyət göstərir. Qondarma “Dağlıq Qarabağ rejimi” ilə dostluq qrupu bu istiqamətdə “böyük xidmətlər” göstərir. Xüsusilə, Fransa parlamentinin sabiq üzvü Fransua Roşebluan erməni lobbisi tərəfindən maliyyələşdirilən, dəstəklənən, onun faktiki ruporuna çevrilən bir şəxsdir. O, açıq-aşkar şəkildə sifarişli, Azərbaycan-Fransa münasibətlərinə xələl gətirən fəaliyyətlə məşğuldur və onun ətrafına da bir qrup insan toplaşıb. Fransa bələdiyyə başçılarının bu səfərləri işğal və azərbaycanlıların etnik təmizlənməsi əsasında qurulan status-kvonun təşviqini həyata keçirmək baxımından birbaşa təxribatdır. Bunu başqa cür qiymətləndirmək mümkün deyil.

### Fransa bələdiyyə başçılarının Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfərləri ölkələrimiz arasındakı münasibətlərin ruhuna ziddir

“Burada ən xoşagəlməz məqam ondan ibarətdir ki, bu bələdiyyə başçıları işğal olunmuş ərazilərə, xüsusilə Şuşaya, Laçına gedərək həmin ərazilərin qondarma rəhbərləri ilə “bəyannamələr”, “bəyanatlar” imzalayırlar. Belə sənədlərin imzalanması o deməkdir ki, Fransanın bələdiyyə başçıları Azərbaycan torpaqlarının işğalını, azərbaycanlıların əzəli, tarixi torpaqlarından etnik təmizlənmələrini qəbul edir, faktiki etnik təmizləmələri dəstəkləyirlər. Bu, öz-özlüyündə bir cinayətdir. Onu xüsusi qeyd etmək lazımdır ki, həmin yerli özünüidarəetmə orqanları Fransa və Azərbaycan arasında imzalanmış sazişlərə, sənədlərə zidd olaraq hərəkət edir, eyni zamanda, Fransanın özünün milli qanunvericiliyinə zidd və tam qanunsuz addımlar atırlar. Belə ki, Fransanın xarici işlər və Avropa məsələləri üzrə naziri və daxili işlər naziri tərəfindən bir neçə ay bundan əvvəl - 2018-ci il mayın 24-də “Yerli özünüidarəetmə orqanlarının xarici fəaliyyətinin hüquqi çərçivəsi” haqqında imzalanmış təmimi təlimat bu qurumları, yəni, bələdiyyələri Fransanın beynəlxalq öhdəliklərinə hörmət etməyə çağırır və Fransa tərəfindən tanınmamış ərazi vahidlərinin separatçı qurumları ilə hər hansı şəkildə müqavilələrin bağlanmasını, səfərlərin həyata keçirilməsini və birgə tədbirlərin təşkilini qəti qadağan edir. Bu, Fransanın Xarici İşlər və Avropa Məsələləri üzrə Nazirliyi ilə Daxili İşlər Nazirliyi arasında imzalanmış bir sənəddir. Yəni, bu sənədə əsasən, Fransada fəaliyyət göstərən yerli özünüidarəetmə orqanları ölkənin xarici siyasətinə zidd olan bəyanatlar, səfərlər və digər bu kimi addımlardan çəkinməlidirlər. Fransa Konstitusiyasının 73-cü maddəsinə və yerli özünüidarəetmə qurumlarının ümumi kodeksinin L.1115-1 maddəsinə uyğun olaraq, qəbul edilmiş təmimi təlimat bu kimi hərəkətləri qadağan edir. Ancaq təəssüflər olsun ki, biz Fransa qanunlarına, beynəlxalq hüququn norma və prinsiplərinə, həmçinin Azərbaycan-Fransa münasibətlərinin ruhuna zidd hərəkətlərin şahidi oluruq. Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri kimi, təəssüflə deməliyəm ki, Fransa hökuməti Azərbaycanın suverenliyi və ərazi bütövlüyü məsələlərinə dair bu sənədin müddəalarını dərhal yerinə yetirilməsi üçün müvafiq addımların atılması istiqamətində qətiyyət göstərmir. Hesab edirəm ki, Fransa hökuməti bu məsələ ilə bağlı qətiyyətli mövqe nümayiş etdirməlidir”- deyə Səməd Seyidov vurğulayıb.

### Minsk qrupunun həmsədri olan Fransa Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı konkret mövqe ortaya qoymalıdır

Milli Məclisin komitə sədri qeyd edib ki, Fransanın ATƏT-in Minsk qrupunun həmsədri olduğunu nəzərə alsaq, bu ölkənin yerli özünüidarəetmə orqanları rəhbərlərinin hərəkətləri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə də əngəllər yaradır, Fransanın vasitəçilik missiyasına ciddi xələl gətirir. Fransa ATƏT-in Minsk qrupunun həmsədri, həm də BMT-nin Təhlükəsizlik Şurasının üzvü olaraq Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal çıxarılması ilə bağlı bəyanatlarla çıxış etməlidir. Konkret mövqe ortaya qoymalı, bu istiqamətdə işlər aparmalıdır. Təəssüflər olsun, biz bunu görmürük.

Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri kimi Fransanın Strasburq şəhərinə səfərlər etdiyini bildirən Səməd Seyidov deyib: “Bu gün Fransada özünü mühacir adlandıran bir qrup şəxslər var və onlar terrora, zorakılığa çağırış edən bəyanatlar səsləndirirlər, faktiki terrorun təbliği ilə məşğuldurlar. Əfsus ki, Fransa hökuməti tərəfindən bu cür hərəkətlərin də qarşısının alınması ilə bağlı qətiyyətli addımlar atılmır.

Bu yaxınlarda Ermənistanda Frankofoniya adlı sammit keçirildi. Frankofoniya humanitar təşkilatdır, onun sammiti humanitar cinayəti törədən ölkədə keçirilib. Yəni, Xocalı soyqırımını törədən, Azərbaycan torpaqlarını işğal edən, həmin ərazilərdə qondarma rejim quran ölkənin paytaxtında humanitar tədbir təşkil olunur. Bu bizdə çox ciddi narahatçılıq doğurur”.

### Belə addımlar əlaqələrimizin inkişafına kölgə salır

Fransa-Azərbaycan münasibətlərinin yalnız mədəni əlaqələri, elmi mübadilələri və bu kimi məsələləri əhatə etmədiyini diqqətə çatdıran Milli Məclisin komitə sədri Səməd Seyidov bildirib ki, bu gün iki ölkə arasında güclü iqtisadi əlaqələr də mövcuddur. Azərbaycanda Fransa şirkətlərinin fəaliyyəti üçün çox yüksək səviyyədə şərait yaradılıb. Fransa şirkətlərinin ölkəmizdə həyata keçirdikləri layihələrin ümumi dəyəri 2 milyard dollardan çoxdur. Onların arasında “Total”, “Suez”, “Thales International” kimi böyük şirkətlər də var. Bu şirkətlər Azərbaycanda fəaliyyət göstərərək pul qazanırlar. Bu nöqteyi-nəzərdən, belə addımların əlaqələrimizin inkişafına kölgə salması göz qabağındadır.

“Hesab edirəm ki, belə səfərlər və Fransa hökuməti tərəfindən bu səfərlərə lazım olan qiymətin verilməməsi iqtisadi əlaqələrimizə ciddi xələl gətirə bilər. Biz bir vətəndaş, parlament üzvləri olaraq fikirləşməliyik ki, Azərbaycanın ərazi bütövlüyünə hörmət etməyən, qondarma rejimlə qeyri-qanuni sənədlər imzalayan, faktiki cinayəti dəstəkləyən, onu tanıyan, bələdiyyələrə lazım olan qiyməti verməyən ölkənin iş adamları ilə əlaqə qurmaq lazımdırmı?

Mən istərdim, Fransa tərəfi və bizim həmkarlarımız, tərəfdaşlarımız başa düşsünlər ki, Azərbaycan sülh, inkişaf istəyir. Biz Fransa-Azərbaycan münasibətlərinin ən yüksək səviyyədə inkişafını arzulayırıq. Ancaq beynəlxalq hüquq, Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi qətnamələr, Avropa Şurasının, Avropa Parlamentinin, ATƏT-in sənədləri əsasında, ərazi bütövlüyümüz çərçivəsində, dünyanın heç bir ölkəsi tərəfindən tanınmayan qondarma rejimə dəstəyin verilməməsi istiqamətində aparılan işləri görmək istəyirik. Həm bələdiyyələrin, həm parlamentin, həm də hökumətin hiss olunan mövqeyini görmək istəyirik.

# Azərbaycanda dövlət-din münasibətlərinin yüksək səviyyədə olması multikulturalizm siyasətinin mühüm təzahürlərindəndir

Roma şəhərində, Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyində ATƏT-in İtaliya sədrliyi və təşkilatın Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun birgə təşkilatçılığı ilə “ATƏT regionunda hərtərəfli cavaba doğru: din və etiqad zəminində dözümsüzlük və ayrı-seçkiliklə mübarizəyə dair” mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov konfransda iştirak edib.




Yüksək səviyyəli konfransda irqçilik, ksenofobiya, antisemitizm, xristianlara, müsəlmanlara, digər din və etiqad nümayəndələrinə münasibətdə dözümsüzlük barədə danışılıb. Həmçinin dini azadlığın və plüralizmin təmin edilməsində dözümlülük və qeyri-ayrı-seçkiliyin təşviqi məsələləri müzakirə olunub.

Tədbirdə ayrı-seçkiliyin və dözümsüzlüyün artan təzahürlərinin aradan qaldırılmasında kütləvi informasiya vasitələrinin roluna, son zamanlar cəmiyyətdə geniş yayılan mənfi stereotiplərin ləğvində, qarşılıqlı hörmət və anlaşmanın təşviqində təhsil proqramlarının əhəmiyyətinə diqqət çəkilib. Bundan başqa, ayrı-seçkiliyin və dözümsüzlüyün bütün formalarının ləğv edilməsində ATƏT-ə üzv ölkələrin müsbət təcrübəsinin geniş müzakirəsinə xüsusi önəm verilib.

Etibar Nəcəfov konfransın “Dözümsüzlük və ayrı-seçkiliyin həllində yaxşı təcrübələr” mövzusuna həsr edilmiş panelində “Azərbaycan Respublikasında dövlət-din münasibətlərinin xüsusiyyətləri” adlı məruzə ilə çıxış edib. O, müasir dövrdə qloballaşma şəraitində dünya ölkələrində etnik, dini, mədəni müxtəlifliklərin artdığının müşahidə olunduğunu bildirərək onların tənzimlənməsinin vacibliyini qeyd edib.

Şöbə müdiri multikulturalizm siyasətinin etnik-mədəni müxtəlifliklərin tənzimlənməsinin ən optimal siyasət modeli olduğunu söyləyib, Azərbaycanın ölkədəki etnik-mədəni müxtəliflikləri multikulturalizm siyasəti vasitəsilə tənzimləyən nadir ölkələrdən olduğunu, bu siyasətin əsasının ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu, müasir dövrdə isə Prezident İlham Əliyev tərəfindən uğurla aparıldığını diqqətə çatdırıb. O, Qərb ölkələrində multikulturalizmin dərin böhranla üzləşdiyi bir şəraitdə Azərbaycanda onun həm dövlət, həm də xalq tərəfindən hərtərəfli dəstəkləndiyini vurğulayıb.

Multikulturalizmin Azərbaycanın daxili siyasətinin tərkib hissəsi kimi çıxış etdiyini deyən Prezident Administrasiyasının rəsmisi onun mühüm təzahürlərindən biri kimi ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyədə olduğunu qeyd edib. Bunun əsas göstəriciləri kimi ölkəmizdə dini azadlıqların təmin edilməsini, bütün dinlərin, məzhəblərin qanun qarşısında bərabər olmasını, dini icmaların fəaliyyətlərinə dövlət tərəfindən hər cür dəstəyin göstərilməsini, həmçinin dinlərarası münasibətlərin qarşılıqlı hörmət və əməkdaşlıq əsasında qurulmasını konfrans iştirakçılarının diqqətinə çatdırıb.

# VI Bakı Beynəlxalq Humanitar Forumu ilə bağlı mətbuat konfransı keçirilib

Oktyabrın 25-26-da Azərbaycanın paytaxtında keçiriləcək VI Bakı Beynəlxalq Humanitar Forumu ilə əlaqədar mətbuat konfransı təşkil edilib.

AZƏRTAC xəbər verir ki, mətbuat konfransında Mədəniyyət Nazirliyinin İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri İntiqam Hümbətov humanitar forumla bağlı təşkilati məsələlərin artıq yekunlaşdığını deyib. Qeyd edib ki, bu forumda sosial və humanitar fəaliyyətin bütün sahələrində çalışan mütəxəssislər bir araya gələrək bəşəriyyəti narahat edən aktual məsələlərin həlli yollarını araşdırırlar.

Mədəniyyət Nazirliyinin aparat rəhbərinin müavini, beynəlxalq əməkdaşlıq və innovativ inkişaf şöbəsinin müdiri Vasif Eyvazzadə bildirib ki, Bakı Beynəlxalq Humanitar Forumu 2010-cu ildən etibarən Azərbaycan Respublikası və Rusiya Federasiyası prezidentlərinin təşəbbüsü ilə keçirilir. Azərbaycanda ənənəvi hal alan bu forum dünyada ən nüfuzlu forumlar və platformalar sırasındadır. İndiyədək ölkəmizdə keçirilən humanitar forumlarda kifayət qədər nüfuzlu şəxslər, siyasətçilər, alimlər, Nobel mükafatçıları, beynəlxalq təşkilatların nümayəndələri, dövlət və hökumət rəsmiləri iştirak ediblər. Budəfəki forumda da həmin ənənə davam etdirilir. Vasif Eyvazzadə deyib ki, VI Bakı Beynəlxalq Humanitar Forumu “Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı” mövzusuna həsr olunub. Bu mövzu ətrafında kifayət qədər maraqlı plenar sessiyalar və işçi sessiyalar təşkil olunacaq. Forumun əsas mövzusu Azərbaycan dövlətinin insan kapitalının inkişaf etdirilməsi siyasətinə dəstək kimi qəbul olunmalıdır. Forumun mövzusu məhz ölkəmizin iqtisadi inkişafını insan kapitalına çevirmə modelini və strategiyasını həm milli, həm beynəlxalq səviyyədə nümayiş etdirmək imkanı verəcək.

Diqqətə çatdırılıb ki, VI Bakı Beynəlxalq Humanitar Forumunda 97 ölkədən 580 nəfər və 24 beynəlxalq təşkilatın təmsilçiləri iştirak edəcəklər. BMT-nin Baş katibinin iki müavini, ISESCO, IRCICA, TÜRKPA, TÜRKSOY, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Beynəlxalq Türk Akademiyası, Parlamentlərarası Birlik, BMT-nin İqtisadi və Sosial Şurası kimi təşkilatların rəhbərləri, UNESCO-nun, MDB İcraiyyə Komitəsinin rəhbərlərinin müavinləri foruma qatılacaqlar. Həmçinin tədbirdə iştirak üçün Sudanın vitse-prezidenti, Rusiya və Slovakiya baş nazirlərinin müavinləri, Sloveniya, Uruqvay, Rusiya, Misir, Belarus, İtaliya və Estoniya parlamentlərinin sədr və sədr müavinləri, Gürcüstan, Monteneqro, Özbəkistan, Bolqarıstan, Türkiyə, Sudan, Tacikistan, Qazaxıstan, Ukrayna, Əfqanıstan, Filippin və Bolqarıstandan nazirlər və nazir müavinləri, Qazaxıstan, Türkiyə, Tacikistan və Özbəkistandan ombudsmanlar, 15 ölkədən 40-dan çox deputat, 46 ölkənin diplomatik nümayəndəliklərinin rəhbərləri, çoxsaylı ölkələrdən şirkət rəhbərləri, elm xadimləri, ekspertlər ölkəmizə gələcəklər.

# Komitə sədri Göyçayda vətəndaşları qəbul edib

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər. AZƏRTAC xəbər verir ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı oktyabrın 23-də Göyçayda Ucar, Zərdab, Kürdəmir və Göyçay rayonlarının sakinlərini qəbul edib.

Göyçay rayon Heydər Əliyev Mərkəzində baş tutan qəbulda vətəndaşlar əsasən məscidlərin təmiri, dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciət ediblər.

Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

# İstehsal məhsuldarlıq hesabına artır

Oktyabr ayı sona yaxınlaşsa da, pambıq yığımının tezliklə yekunlaşacağını söyləmək hələ tezdir. Həm havaların kəndliyə hər cəhətdən sərfəli olan bu bitkinin toplanması üçün əlverişli keçməsini, həm ötən ilin təcrübəsini (2017-ci il mövsümündə pambıq yığımı dekabrın sonunadək davam etmişdi), həm də tarlalarda bol məhsul yetişdiyini nəzərə alsaq, yığımın hətta qızğın çağı olmasını da söyləyə bilərik, baxmayaraq ki, pambıq yetişdirən rayonların əksəriyyəti keçən ilin müvafiq dövrünün nəticələrini indidən xeyli üstələyiblər.

Bunu Dövlət Statistika Komitəsinin pambıq tədarükü barədə açıqladığı növbəti məlumat da sübut edir. Oktyabrın 23-nə olan məlumata görə, mövsüm başlayandan ölkə üzrə tarlalardan 158 min tondan çox pambıq toplanıb. Müqayisə üçün bildirək ki, keçən ilin eyni dövründə toplanmış məhsulun həcmi 119,7 min ton olmuşdu ki, bu da cari mövsümdəkindən təxminən 32 faiz azdır.

Bu yerdə bir vacib məqamı da nəzərə çatdırmaq istərdik. Məsələ bundadır ki, cari mövsümdə keçən ildəkinə nisbətən daha çox məhsul toplanmasının səbəbi heç də əkin sahələrinin artırılması deyil. Əksinə, bu mövsüm ötən ildəkindən təxminən 3 faiz az (əgər 2017-ci ildə ölkə üzrə 136,4 min hektarda pambıq əkilmişdisə, bu il həmin rəqəm 132,5 min hektardır) sahədə pambıq becərilib. Bu faktın özü sübut edir ki, builki məhsul istehsalının artımı əlavə əkin sahələri hesabına yox, məhsuldarlıq hesabınadır. Bu isə Azərbaycan kimi elə də çox olmayan əkin sahələrinə malik ölkə üçün az əhəmiyyətli məsələ deyil.

Rayonlara gəldikdə, cədvəldən də göründüyü kimi, demək olar bütün pambıqçılıq bölgələri ötənilki nəticələri qabaqlayırlar. Hətta elə rayonlar var ki, öz keçənilki göstəricilərini faizlə deyil, dəfələrlə üstələyir. Məsələn, indiyədək 4,1 mindən çox pambıq təhvil verən yevlaxlılar 2017-ci ilin eyni dövrünədək cəmi 1,5 min ton pambıq toplamışdılar. Goranboy, Beyləqan, Bərdə, Ağcabədi, İmişli, Kürdəmir, Hacıqabul pambıqçıları da cari mövsüm ötən ilin müvafiq dövrünə nisbətən daha çox məhsul təhvil verənlər sırasındadırlar.

Pambıqçılıq rayonu kimi tanınmayan Samux rayonunda da bu gəlirli sahəyə maraq xeyli artıb. Belə olmasaydı, ötən il cəmi 53 hektarda pambıq əkib 13,3 ton məhsul təhvil verən samuxlu fermerlər cari mövsümdə əkin sahəsini 400 hektara, oktyabrın 23-dək yığılan məhsulun həcmini 631,5 tona çatdırmazdılar.

Pambıq yığımı sürətlə davam edir. Havaların imkan verəcəyi halda yığım belə davam edərsə, ölkə üzrə keçən ildəkindən daha çox məhsulun toplanacağı şübhəsizdir.

**23.10.2018-ci il tarixə pambıq tədarükünə dair operativ məlumat**

| Rayonlar | Əkin sahəsi, hektar | | | 23 oktyabr tarixə pambıq qəbulu məntəqələrinə təhvil verilmişdir, ton | | |
|---|---|---|---|---|---|---|
| | 2018-ci il | 2017-ci il | 2018-ci il 2017-ci ilə nisbətən | 2018-ci il | 2017-ci il | 2018-ci il 2017-ci ilə nisbətən |
| **Respublika üzrə cəmi** | **132512,0** | **136413,2** | **97,1%** | **158083,25** | **119740,27** | **132,0%** |
| Ağcabədi rayonu | 10000,0 | 9550,0 | 104,7% | 16836,17 | 10902,71 | 1,5 dəfə |
| Ağdam rayonu | 3100,0 | 3005,0 | 103,2% | 3854,08 | 3709,79 | 103,9% |
| Ağdaş rayonu | 3185,0 | 3000,0 | 106,2% | 2802,87 | 2059,20 | 136,1% |
| Ağsu rayonu | 2600,0 | 2500,8 | 104,0% | 1277,83 | 1498,70 | 85,3% |
| Beyləqan rayonu | 9560,0 | 8550,0 | 111,8% | 14597,05 | 9214,87 | 1,6 dəfə |
| Bərdə rayonu | 9630,0 | 8518,5 | 113,0% | 16400,24 | 10909,39 | 1,5 dəfə |
| Biləsuvar rayonu | 12000,0 | 11351,8 | 105,7% | 13583,59 | 13769,46 | 98,7% |
| Cəlilabad rayonu | 505,0 | 500,0 | 101,0% | 731,82 | 596,10 | 122,8% |
| Füzuli rayonu | 2100,0 | 2050,0 | 102,4% | 1526,73 | 1121,10 | 136,2% |
| Goranboy rayonu | 5000,0 | 5000,0 | 100,0% | 5940,40 | 3318,30 | 1,8 dəfə |
| Hacıqabul rayonu | 1300,0 | 1203,9 | 108,0% | 768,15 | 376,72 | 2 dəfə |
| İmişli rayonu | 13645,0 | 15641,5 | 87,2% | 11914,87 | 7768,95 | 1,5 dəfə |
| Kürdəmir rayonu | 5030,0 | 4027,0 | 124,9% | 4620,19 | 2897,58 | 1,6 dəfə |
| Neftçala rayonu | 7000,0 | 11111,0 | 63,0% | 7466,28 | 5757,77 | 129,7% |
| Saatlı rayonu | 15815,0 | 17220,0 | 91,8% | 21184,74 | 18419,40 | 115,0% |
| Sabirabad rayonu | 13055,0 | 15055,0 | 86,7% | 12317,28 | 11441,34 | 107,7% |
| Salyan rayonu | 7055,0 | 7052,4 | 100,0% | 7449,19 | 5324,80 | 139,9% |
| Samux rayonu | 400,0 | 53,0 | 7,5 dəfə | 631,59 | 13,38 | 47,2 dəfə |
| Tərtər rayonu | 3300,0 | 3123,0 | 105,7% | 5481,48 | 5009,14 | 109,4% |
| Ucar rayonu | 2500,0 | 2500,0 | 100,0% | 1128,99 | 1195,16 | 94,5% |
| Yevlax şəhəri | 2500,0 | 2168,0 | 115,3% | 4197,18 | 1598,31 | 2,6 dəfə |
| Zərdab rayonu | 3232,0 | 3232,3 | 100,0% | 3372,53 | 2838,10 | 118,8% |

**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi**





# 11 illik müəllimlikdən sonra peşə təhsilini seçdi

*"ASAN peşə" sənət seçimində ən uğurlu model təklif edir*

Son illərdə ölkəmizdə peşə təhsili ilə bağlı vəziyyət köklü şəkildə dəyişib. Bu sahəyə ayrılan xüsusi diqqət, həyata keçirilən mühüm layihələr əsaslı irəliləyişin əldə olunmasına gətirib çıxarıb. Təhsil Nazirliyi və "ASAN xidmət" Mərkəzinin birgə həyata keçirdiyi "ASAN peşə" layihəsi də dövlət peşə təhsili müəssisələrinə qəbulun rahatlığını və obyektivliyini təmin edir.

Elə Təhsil Nazirliyinin təşkilatçılığı ilə Mingəçevir "ASAN peşə" təhsil mərkəzinə təşkil edilən mediaturun da məqsədi peşə təhsilində görülən bu işlərin bir qismi ilə yaxından tanış olmaq idi.









### 3 pilləli peşə təhsili

"Peşə təhsilinin inkişafı cəmiyyətdə insan kapitalının formalaşmasına, ÜDM-in səviyyəsinin yüksəlməsinə, işsizliyin aradan qaldırılmasına, vətəndaş cəmiyyətinin inkişafına, sosial gərginliyin və cinayətkarlığın azaldılmasına xidmət edir". Bu sözləri Mingəçevir "ASAN peşə" Təhsil Mərkəzində "Azərbaycan Respublikasında peşə təhsili: islahatlar və perspektivlər" mövzusunda keçirilən seminarda çıxış edən Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktor əvəzi Amil Əlili dedi.

Peşə təhsili haqqında qəbul edilmiş müvafiq qanunla müəyyən olunmuş yenilikləri sadalayan Amil Əlili bildirdi ki, peşə təhsili pilləsinin 3 səviyyəsi müəyyən edilib: "Bunlara ilk peşə təhsili, texniki peşə təhsili və yüksək texniki peşə təhsili səviyyələri daxildir. Yeniliklərdən irəli gələrək peşə təhsili sistemində təhsilalanlar tələbə statusu əldə edib, ümumi təhsil müəssisələrinə ilk peşə təhsili səviyyəsi üzrə təmayüllü siniflər yaratmaq hüquqları verilib, yüksək texniki peşə təhsili alanlara sub-bakalavr peşə-ixtisas dərəcəsi verilib, tələbələrə istehsalat təlimi və təcrübəsi keçdikləri zaman iş yerində təcrübə müqaviləsi bağlamaq imkanı yaradılıb və onlara minimum aylıq əməkhaqqıdan az olmamaq şərti ilə əməkhaqqının ödənilməsi təsbit edilib".

### Daha 10 peşə təhsil müəssisəsi yaradılacaq

Hazırda peşə təhsili sahəsində islahatların aparıldığını deyən Amil Əlili vurğuladı ki, ilkin rasionallaşdırma tədbirləri nəticəsində 83 peşə təhsili müəssisəsi yaradılıb, daha 10 peşə təhsil müəssisəsinin yaradılması ilə bağlı Tədbirlər Planı hazırlanıb və aidiyyəti üzrə təqdim edilib. 60 peşə təhsili müəssisəsinin 2 minə yaxın müəllim və istehsalat təlimi ustasının diaqnostik qiymətləndirilməsi keçirilib. 2018-ci ilin sonunadək bütün dövlət peşə təhsili müəssisələrinin müəllim-pedaqoji heyətinin diaqnostik qiymətləndirilməsi başa çatdırılacaq. Növbəti diaqnostik qiymətləndirmə noyabr ayı ərzində keçiriləcək və təxminən 600-ə qədər müəllimin iştirakı gözlənilir.

Amil Əlilinin sözlərinə görə, son 2 ildə turizm üzrə hazırlanan 160 nəfərdən 90 nəfəri 4 və 5 ulduzlu hotellərdə işlə təmin olunub: "Peşə ixtisası ilə bağlı qəbul işə götürənlərin sifarişləri əsasında formalaşır və ona əsasən bilirik ki, hansı kadrlara ehtiyac var. Əsas 4 prioritet istiqamət üzrə - sənaye, kənd təsərrüfatı, İT ixtisası, turizm üzrə kadr hazırlığına üstünlük verilir. Qəbul planı hazırlanarkən əmək bazarının sorğuları əsasında hansı kadrlara ehtiyac olduğu müəyyən edilir və bu istiqamətlər üzrə kadrlar hazırlanır. Hazırda peşə təhsilinin 23 minə qədər tələbə kontingenti var".

### Koreya təhsil standartları əsasında Peşə Təhsil Mərkəzi

Azərbaycan və Koreya Hökuməti arasında razılaşmaya uyğun olaraq Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində nümunəvi təhsil müəssisəsi yaradılacaq.

Mexanika, elektronika, elektrik mühəndisliyi, sənayedə quraşdırma işləri, tikinti, informasiya texnologiyaları, avtomobil və avtomatlaşdırma istiqamətləri üzrə (ümumilikdə 8 ixtisas) ən müasir maddi-texniki baza, Koreyanın tədris planı və mütəxəssislərinin iştirakı ilə təhsil müəssisəsinin yaradılması nəzərdə tutulur.

Bu həftədən etibarən həmin mərkəzdə işləyəcək 24 yerli mütəxəssis iki ay müddətində Azərbaycanda, növbəti ilin ilk 3 ayında isə Koreyada təlim keçəcəklər. Həmçinin, bu layihə çərçivəsində oğlan və qızlar üçün ayrı-ayrı olmaqla iki böyük yataqxananın tikintisi nəzərdə tutulub.

Amil Əlili qeyd etdi ki, hazırda 10 minə yaxın məcburi köçkün soydaşımız peşə təhsili müəssisələrində, o cümlədən pilot peşə təhsili mərkəzlərinin 5-də məskunlaşıb. Məcburi köçkünlər çıxarıldıqdan sonra həmin müəssisələrin yenidən qurulması nəzərdə tutulub.

### Peşəyə maraqlı gənclər...

Daha sonra "ASAN peşə" təhsil mərkəzinin infrastrukturu və maddi texniki bazası ilə yaxından tanış olmaq üçün mərkəzə yollandıq.

Direktor İlham Zahidov bildirdi ki, cari tədris ilindən fəaliyyətə başlayan mərkəz 3 mərtəbədən ibarətdir və müasir tələblərə cavab verən bütün növ zəruri avadanlıq, ixtisas fənn kabinetləri, təlim və tədris vəsaitləri ilə təchiz olunub. Hazırda təhsil ocağında 5 ixtisas (elektrik, mexanik, santexnik, tikişçi və kompüter operatoru) üzrə 100 tələbə təhsil alır.

Tədris planına uyğun olaraq şagirdlər hələ nəzəri və təlim məşğələləri keçir. Növbəti ilin aprel ayından etibarən hər bir şagird öz profilinə uyğun müəssisədə təcrübə keçəcək. Yekunda dövlət imtahanı keçirilir və müvəffəqiyyət əldə edənlərə diplom verilir. Məktəbdə 16 müəllim, 8 usta olmaqla ümumilikdə 24 nəfərlik pedaqoji heyət var. Müəllimlər Mingəçevir peşə məktəbinin təcrübəli müəllimləridir. Ehtiyac yarandığı halda isə başqa yerlərdən mütəxəssislər cəlb olunur.

### Hansısa peşəyə yiyələnmək boş-boş gəzməkdən daha yaxşıdır

"Rəqəmli idarə olunan dəzgahların kompüter operatoru" ixtisasının tədris edildiyi otağa daxil oluruq. Müəllimə həvəslə qulaq asan şagirdlər bizi görcək təəccüblənirlər. Uşaqlarla salamlaşıb əvvəlcə ixtisas müəllimi Gülüstan Kərimova ilə söhbətləşirik.

Müəllimin sözlərinə görə, bu ixtisas birinci ildir ki, mərkəzdə tədris olunur: "Uşaqların öyrənməsi üçün hər bir şərait var. Elektron dərs vəsaitləri, kompüter ilə təmin olunublar. Özləri də öyrənməyə çox həvəslidirlər".

Fərid Şirinov onun kimi peşəyə yiyələnmək istəyən həmyaşıdları adından dövlət başçısına öz təşəkkürünü çatdırır: "Gələcəyimizi qurmaq üçün dövlət bizə bütün imkanları yaradıb. Bu ixtisas üzrə qəbul elan olunanda çox düşündüm, evdə də valideynlərimlə məsləhət etdim. Onlar ali təhsil almağımı istəyirdilər, ancaq mənim bu peşəyə marağım var idi. Gələcək mənim olduğu üçün qərarı da özüm verdim və buranı seçdim. Həm yeni ixtisasdır, həm də hansısa peşəyə yiyələnmək boş-boş gəzməkdən daha yaxşıdır. Burada bizə son yeniliklər öyrədilir. Elektron dəzgahlarda işləyirik".

Eyni ixtisas üzrə təhsil alan Aysu Rüstəmli seçimindən çox razıdır: "11-ci sinfi bitirəndə nə edim, hansı ixtisası seçim deyə çox götür-qoy etdim. Nəhayət, "ASAN peşə" təhsil mərkəzində istədiyim ixtisas üzrə qəbul keçirildiyi barədə eşitdim və sənədlərimi "ASAN xidmət" vasitəsilə verdim. 150 nəfər içərisindən 19 nəfər qəbul olduq. Ali təhsil müəssisələrində bu ixtisas üzrə gələn ildən qəbul keçirilməsi planlaşdırılır və keçid balı da çox yüksək nəzərdə tutulub. İki ildən sonra bu peşəyə çox yaxşı yiyələnəcəyik. Gələn ildən eyni ixtisas üzrə təhsil alacaq olan tələbələr isə hələ ki 4 il oxuyacaqlar. Ümid edirəm, gəlib yanımızda təcrübə keçərlər".

Söhbətə qoşulan Tünzalə müəllimə də deyir ki, hər son zəng günü peşə mərkəzinin müəllimləri məktəblərə gedir və şagirdlərə hansı peşələr üzrə qəbul keçiriləcəyi ilə bağlı məlumatlar verirlər.

### Fizika müəlliminin yeni seçimi

Daha sonra "Elektrik xətlərinin quraşdırılması üzrə mütəxəssis" ixtisası üzrə təhsilalanların istehsalat təlimi məşğələsində iştirak etdik.

Diqqətimizi ilk çəkən tələbə Xəyyam Əliyev olur. Xəyyam danışır ki, Gəncə Dövlət Universitetini Fizika müəllimliyi ixtisası üzrə bitirib. 2005-ci ildən 11 il ərzində müəllim kimi fəaliyyət göstərib, ancaq sonra texnologiyanın inkişaf etdiyi müasir dövrlə ayaqlaşmaq üçün yeni bir peşəyə yiyələnmək qərarına gəlib.

Daha sonra "Tikişçi" və "Santexnik-çilingər" ixtisasları üzrə təhsilalanların istehsalat təlimi məşğələlərini müşahidə etdik. Anası dərzi olan Üzeyir Yusibov da dərziliyi öyrənir. Uşaqlıqdan bu peşəyə marağı var. Təhsilini bitirəndən sonra tikiş üzrə operator olmaq istəyir.

Mərkəzlə tanışlıqdan sonra "Rəqəmli idarə olunan dəzgahların kompüter operatoru" ixtisası üzrə təhsilalanların istehsalat təcrübəsi prosesi ilə yaxından tanış olmaq üçün Akkord-Mingəçevir Maşınqayırma Zavoduna yollandıq. Tələbələrlə birgə istehsalat təcrübəsi zamanı iş prosesini yaxından izlədik.

### Dövlət gənclərin peşə təhsili almasına mühüm töhfə verir

Əlbəttə ki, bir peşəyə sahib çıxıb yaxşı sənətkar olmaq ən doğru seçimdir. Son illərdə gənclərin peşə öyrənməsi üçün dövlət hər cür şərait yaradıb. Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizdə peşə təhsil müəssisələrinin yenidən qurulması və yeni "ASAN peşə" mərkəzlərinin yaranması çox yüksək qiymətləndirilməlidir.

Görülən işlər həqiqətən də gənclərin peşə təhsili almasına mühüm töhfə verir. Gənclərin böyük həvəslə sənəti öyrənmək istəyi göstərir ki, gələcəkdə onların hər biri peşəkar sənətkar olacaqlar. Bu da ölkədə işsizliyin aradan qaldırılmasında mühüm rol oynayacaq. Əminik ki, tezliklə əksər bölgələrdə də belə təhsil müəssisələri yaradılacaq.

***Fərizə ƏHMƏDOVA, "Azərbaycan"***

# Xankəndi Yerevana hərbi qiyam hazırlayır

## Paşinyan iqtidarına qarşı Sarkisyan-Koçaryan koalisiyası dövlət çevrilişi planını işə salıb

*Əvvəli 1-ci səh.*

İddia edib ki, 2008-ci il martın 1-də prezident seçkilərinin nəticələrinə qarşı keçirilən etiraz aksiyası ilə bağlı qəbul olunan qərarlara, parlamentdə bu siyasi kampaniyanın nəticələrinin təsdiqlənməsinə müxalif olub.

Baş prokurorun keçmiş müavini müraciətində ölkədəki korrupsiyaya qarşı olduğunu da vurğulayıb. Erməni mediası yazır ki, əslində, Armen Danielyan bu addımı Nikol Paşinyanın təhriki ilə atıb və əsas məqsəd Sarkisyanı, ona bağlı qüvvələri seçkilərdən kənarda saxlamaqdır. Lakin məsələ təkcə Sarkisyanla bitmir.

Artıq digər sabiq prezident Robert Koçaryan da Nikol Paşinyanla mübarizəyə başladığını açıqlayıb. O, "RİA Novosti"yə müsahibəsində partiya yaratmaq və müxalifət olmaq niyyətini açıqlayıb. Bildirib ki, hazırda Ermənistanın müxalifət düşərgəsində boşluq hiss etdiyi üçün siyasətə qayıtmağı qərara alıb: "Əgər siyasətə qayıdırsansa, onda bu haqda düşünmək lazımdır. İndi müxalifət düşərgəsində çox ciddi boşluğu görürəm və hesab edirəm ki, ölkənin xeyrinə bu boşluğu doldurmaq lazımdır".

### Paşinyan Koçaryana inanmır

"İrs" partiyasının sədri Armen Martirosyan bildirir ki, Koçaryanın dekabrda keçiriləcək növbədənkənar parlament seçkilərində iştirak etməyəcəyi ilə bağlı bəyanatı Nikol Paşinyanı arxayın etməyib. Koçaryan hələlik buna hazır olmadığını bildirsə də, vəziyyət pisləşəcəyi təqdirdə fikrindən dönəcəyini də qeyd edib. Bu isə onu təsdiqləyir ki, sabiq prezident hələ də qəti qərar qəbul etməyib. Vəziyyət isə iki ay ərzində hər an dəyişə, hətta qanlı qarşıdurmaya keçə bilər.

Bundan narahat olan Paşinyan yenidən Koçaryana və ona yaxın adamlarına qarşı hücuma keçib. Bu fonda Ermənistanın keçmiş xarici işlər naziri Vardan Oskanyana ölkəni tərk etmək qadağan olunub. "Joxovurd" qəzeti yazır ki, Oskanyanın adı ölkənin ən iri iş adamlarından biri Samvel Mayrapetyanın cinayət işində hallanır: "Ermənistanın keçmiş xarici işlər naziri Vardan Oskanyan hüquq-mühafizə orqanlarının maraq dairəsinə düşüb. İş adamı Samvel Mayrapetyanın tutulmasından bir neçə gün sonra Oskanyan ölkəni tərk etməyə cəhd edib, lakin bu ona qadağan olunub".

Samvel Mayrapetyan Robert Koçaryana yaxın adam hesab edilir. Erməni mediası yazır ki, o, Oskanyanla birgə çoxsaylı işlər görüb və Koçaryanın ən yaxın ətrafına daxildir. Belə şəxslərin tutulması ilə Paşinyan Koçaryanı zəiflətməyi düşünür. Bütün bunlar isə Ermənistanda siyasi gərginliyi daha da artırır və seçkilərin də gərgin mühitdə keçəcəyini göstərir.

### Sabiqlər Paşinyanla savaşa Xankəndidən başlayırlar

Bir məqamı da qeyd edək ki, Nikol Paşinyanı narahat edən əsas məqamlardan biri də Sarkisyan-Koçaryan koalisiyasının Qarabağ separatçılarından dəstək ala biləcəyidir. Hətta 2 ay öncə bu təhlükəni sovuşdurmaq üçün Paşinyan Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsinə getmiş, separatçıların lideri Bako Saakyanla görüşmüşdü. Görüşün detalları bəlli olmasa da, vurğulanırdı ki, Paşinyan Qarabağ separatçılarının Koçaryana dəstək verməsinə qarşı çıxıb.

Bununla da sabiqlər əslində uzaqgedən məqsədlər güdərək separatçı rejimin dəstəyi ilə yenidən Ermənistanda hakimiyyət başına qayıtmağı düşünürlər. Əvvəlki illərin təcrübəsini nəzərə alaraq Koçaryan bu xüsusda separatçı rejimin dəstəyinin onun üçün həyati əhəmiyyət kəsb etdiyini yaxşı başa düşür. Bu mənada onun separatçı rejim təmsilçiləri ilə əlaqələrini genişləndirməsi, intensivləşdirməsi heç də təsadüfi xarakter daşımır. Əsas niyyət separatçı rejimin köməyi ilə Yerevana qarşı müqavimət və itaətsizlik təşkil etmək, bununla xaotik durumun yaradılmasına nail olub, güc yolu ilə olsa belə hakimiyyəti qəsb etməkdir. Qarabağ separatçıları arasında dəstəyə malik Koçaryanın, eləcə də Sarkisyanın sərt formada müqavimət göstərməsi gözlənilir və bu da Ermənistanda qarşıdurmanın dərinləşməsi deməkdir.

### Seçki Məcəlləsinə dəyişikliklər təsdiqlənmədi

Bu arada Paşinyan Ermənistan parlamentinin Seçki Məcəlləsinə dəyişikliklərin edilməsi haqqında qanun layihəsini qəbul edə bilməməsinə münasibət bildirib. Qanun layihələri zərfinin qəbul edilməsi üçün 63 səs tələb olunurdu ki, bunu da toplamaq mümkün olmayıb. Qanun layihəsinin lehinə 56, əleyhinə isə 3 deputat səs verib. Ermənistan Respublika Partiyasının, o cümlədən Daşnaksütyunun deputatları iclas salonuna qəsdən gəlməyiblər

Paşinyan qeyd edib ki, Ermənistan parlamentinin Seçki Məcəlləsinə dəyişiklikləri təsdiqləməkdən imtina etməsi sabotajdır: "Ölkə parlamentində səsvermə bir daha göstərdi ki, ölkənin qanunvericilik orqanının növbədənkənar seçkilərinə alternativ yoxdur. Parlament çoxluğu və onun tərəfdarları sabotaj siyasətinin davam etdirilməsi üçün əllərindən gələni edirlər. Lakin bu o demək deyil ki, parlament seçkiləri dekabrda keçirilməyəcək"

### "Seçkilərə təkcə erməni siyasi qüvvələri yox, həm də Moskva hazırlaşır"

Beynəlxalq təşkilatlar da Paşinyanın tələsik seçki keçirməsindən narazıdır. Avropa Şurası Parlament Assambleyası Ermənistandakı siyasi qüvvələri demokratiya və qanunun aliliyi prinsiplərinə tam şəkildə hörmət etməyə, növbədənkənar parlament seçkilərinə hazırlaşarkən tələskənliyə yol verməməyə çağırıb. Bildirilir ki, Ermənistanda Seçki Məcəlləsinə istənilən dəyişiklik Venesiya Komissiyasının təlimatlarına tamamilə uyğun gəlməlidir. Lakin indilikdə bu müşahidə olunmur.

İndi əksər yerli və xarici ekspertlər isə belə hesab edirlər ki, Haqik Tsarukyanın rəhbərlik etdiyi "Çiçəklənən Ermənistan" partiyası, eləcə də "Daşnaksütyun"un da Paşinyana qarşı olması sonuncunun durumunu ağırlaşdırır.

Erməni şərhçi Qarnik Qevorkyan yazır ki, onlar Paşinyana qarşı Moskvadan da dəstək alırlar: "Maraqlıdır ki, Tsarukyanın Moskvaya qəfil səfərləri son dövrlərdə xeyli intensivləşib. Ümumiyyətlə, Ermənistandakı inqilab təkcə Serj Sarkisyanı hakimiyyətdən məhrum etmədi, həm də Rusiya təsirini azaltdı. O üzdən indi növbədənkənar parlament seçkilərinə təkcə erməni siyasi qüvvələri yox, həm də Moskva hazırlaşır. Yaxın vaxtlarda Ermənistandakı Rusiyayönümlü qüvvələrlə əməkdaşlıq güclənəcək. Bu baxımdan, Tsarukyanın tez-tez Moskvaya getməsi təsadüfi deyil. Onun Rusiya rəhbərliyi, eləcə də Belarus Prezidenti Aleksandr Lukaşenko ilə yaxşı münasibətləri var. Həmçinin, o, Robert Koçaryan kimi, hakimiyyətin dayaqlarından biridir. Yəni Tsarukyan Ermənistanda Rusiyanın dayaqlarından biri hesab olunur".

Qevorkyan Tsarukyanın Moskva səfərindən sonra Ermənistanın daxili siyasətində dəyişikliklərin olacağını qeyd edib: "Həmçinin görünən odur ki, Moskva təkcə Tsarukyan və Respublika Partiyası ilə deyil, ölkə daxilində bir neçə subyektlə işləyəcək. Ötən illərin təcrübəsi bunu təsdiqləyir. Sadəcə olaraq, Rusiya seçkilərə qədər mövcud Paşinyan hakimiyyəti ilə işləyəcək, seçkilərdə isə öz qüvvələrinə dəstək verəcək".

Ermənistan daxilində artan narazılıq da Paşinyan üçün seçkilər ərəfəsində problemə çevrilir. İşğalçı ölkədə siyasi gərginliklə yanaşı, etirazlar da səngimir. Müxtəlif şəxslərin istefası, sosial tələblər əsasında baş tutan aksiyalar cəmiyyətdə Paşinyandan narazılıqların artdığını üzə çıxarır. Nikol Paşinyan isə indi, istefa verməsinə baxmayaraq, hələlik baş nazirlik səlahiyyətlərini icra edir. Amma belə görünür ki, parlament seçkilərindən sonra o, bu vəzifəni müvəqqəti olsa da icra etməyə bilər.

***Elçin CƏFƏROV, "Azərbaycan"***



# İQTİSADİYYAT

## Hədəflər dəf olunur

Cari ilin yanvar-sentyabr ayları ərzində ölkə üzrə 57 milyard 761,9 milyon manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunmuşdur ki, bu da ötən ilin eyni dövründəkinə nisbətən 0,8 faiz çoxdur. 9 ay ərzində ÜDM istehsalı iqtisadiyyatın qeyri-neft sektorunda 1, neft sektorunda 0,5 faiz artmışdır. Bu barədə Dövlət Statistika Komitəsinin cari ilin 9 ayı üzrə ölkəmizin sosial-iqtisadi inkişafını əks etdirən hesabatında məlumat verilir.



*Əhalinin gəlirləri 9,5, qeyri-neft sənaye məhsullarının istehsalı 10,8, qeyri-neft sektoruna yönəldilən vəsaitin həcmi 20,2 faiz artmışdır*

Hesabatda həmçinin bildirilir ki, 9 ay ərzində istehsal olunmuş əlavə dəyərin 45,9 faizi sənaye, 9,5 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 6,3 faizi tikinti, 6,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,7 faizi kənd və meşə təsərrüfatları, balıqçılıq, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,5 faizi informasiya və rabitə, 14,4 faizi digər sahələrin payına düşmüşdür. Bu dövrdə məhsula və idxala xalis vergilər ÜDM-in 7,9 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM-in həcmi 5889,2 manata bərabər olmuşdur.

Hesabat dövründə ölkədə 35,6 milyard manatlıq (keçən ilin eyni dövründəkindən 2 faiz çox) sənaye məhsulları istehsal edilmişdir. Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 10,8 faiz artmışdır. Artım neft sektorunda da qeydə alınmışdır - 0,7 faiz. Məhsulların 73,1 faizi mədənçıxarma, 22,3 faizi emal, 4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,6 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmişdir. Mədənçıxarma sektoru üzrə neft hasilatında 0,7, əmtəəlik qaz hasilatında 2,4 faiz artım müşahidə olunmuşdur.

Emal sektorunda avtomobil, qoşqu və yarımqoşquların istehsalı 27,4, tütün məmulatları və elektrik avadanlıqlarının hər birinin istehsalı 2,5, poliqrafiya məhsulları istehsalı 2,8, mebel istehsalı 2,1 dəfə, dəri və dəri məmulatları, ayaqqabı istehsalı 42,7, toxuculuq sənayesi məhsulları istehsalı 53,3, tikinti materialları istehsalı 32,2, metallurgiya sənayesi məhsulları istehsalı 15,7, geyim istehsalı 1,6, hazır metal məmulatları istehsalı 7,4, içkilərin istehsalı 11,4, kimya sənayesi məhsulları istehsalı 7,8, kağız və karton istehsalı 5,8, ağacın emalı və ağacdan məmulatların istehsalı 20,6 faiz artmışdır. Artım həmçinin elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, eləcə də su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında müşahidə olunmuşdur - müvafiq olaraq 5,9 və 2,2 faiz.

Dövlət Statistika Komitəsinin məlumatına görə, yanvar-sentyabr-avqust aylarında əsas kapitala 10 milyard 148,7 milyon manat vəsait yönəldilmişdir. Bu dövrdə qeyri-neft sənayesinə qoyulmuş investisiyaların həcmi 24,4 faiz artmışdır. İstifadə olunmuş vəsaitin 69,3 faizi məhsul istehsalı və 22,4 faizi xidmət obyektlərinin, 8,3 faizi ümumi sahəsi 1,5 milyon kvadratmetrdən çox olan yaşayış evlərinin tikintisinə sərf edilmişdir. 60,7 faizi daxili sərmayələr olan bu vəsaitlərin 69,4 faizi bilavasitə tikinti-quraşdırma işlərinə yönəldilmişdir. Xarici sərmayəyə gəldikdə, hesabat dövründə onların həcmi 3 milyard 992,4 milyon manata çatmışdır. Bu vəsaitin 80,6 faizi Böyük Britaniya, İsveçrə, Türkiyə, Malayziya, ABŞ, Yaponiya, Çexiya, Rusiya və İran kimi ölkələrə məxsusdur. Hesabatda həmçinin bildirilir ki, yanvar-sentyabr aylarında qeyri-neft sektorunun inkişafına 5,7 milyard manatdan çox vəsait sərf olunmuşdur. Həmin vəsaitin 10,6 faizindən (1,07 milyard manatından) qeyri-neft sənayesi sektorunda istifadə edilmişdir.

Bütün bu vəsaitlər hesabına ilin əvvəlindən ötən 9 ay ərzində ölkə ərazisində çoxsaylı və müxtəlif təyinatlı müəssisə və obyektlər tikilib istifadəyə verilmişdir. Onların sırasında paytaxtda "Yasamal-1", "Qobu" və 120 saylı elektrik yarımstansiyaları, Yüksəkgərginlikli Avadanlıqlar Zavodu, Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin yeni binası, Bakı Statistika İdarəsinin inzibatı binası, "Bona Dea" beynəlxalq hospital, Bakı Beynəlxalq Ticarət Limanı Kompleksi, "Dinamo" hoteli, "Abşeron" Logistika Mərkəzi, Bakı Kitab Mərkəzi, Bakı Olimpiya Stadionundan Heydər Əliyev prospektinə keçid və müxtəlifsəviyyəli yol qovşağı, Sumqayıtdakı Kimya Sənaye Parkında Polipropilen Zavodu, Mingəçevir Sənaye Parkında iplik istehsalı üzrə 2 müəssisə, Neftçala Sənaye Məhəlləsində "Xəzər" avtomobil zavodu, Xaçmazda "Azərxalça" ASC-nin filialı, Naxçıvan MR-də 922 şagirdlik 3 ümumtəhsil məktəb binası və ambulator-poliklinika, Təmizləyici Qurğular Kompleksi, Naxçıvan Müəllimlər İnstitutunun yeni binası, Naftalanda şəhər mərkəzi xəstəxanası, Goranboyda "Region Aqropark", Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsi, "Dəliməmmədli" elektrik yarımstansiyası, Dəliməmmədli-Quşçular-Fəxralı-Qurbanzadə-Alpout avtomobil yolu, İsmayıllıda heyvandarlıq kompleksi, aqropark, elektrik yarımstansiyası, "Azərxalça" ASC-nin filialı, eləcə də Muğanlı-İsmayıllı-Mingə-Keyvəndi-Şəbiyan-Bəhliyan avtomobil yolu, Şamaxıda üzümçülük və şərabçılıq kompleksi, Dəmirçi Arxeologiya Muzeyi, Dəmirçi-Lahıc avtomobil yolu, Biləsuvar rayonunda Zəhmətabad-Bəydili-Xırmandalı-Əliabad avtomobil yolu, Masallıda sənaye məhəlləsi və çəltik emalı müəssisəsi, həmçinin Bakı, Şəki, Abşeron, Balakən və Şamaxıda ümumilikdə 5816 şagirdlik 5 məktəb binası və digər bu kimi vacib obyektlər var.

Ölkənin ümumi inkişafı nəqliyyat, informasiya və rabitə sektorlarının fəaliyyətini də xeyli canlandırıb. Hesabat dövründə ölkə üzrə 169,8 milyon ton yük və 1,4 milyard nəfərdən çox sərnişin daşınmışdır ki, bu da hər bir sektor üzrə ötən ilin eyni dövründəkindən 1,3 faiz çoxdur. İnformasiya və rabitə müəssisələri isə bu dövrdə 1 milyard 357,2 milyon manatlıq müxtəlif xidmətlər göstərmişdir ki, onların da 72,5 faizindən əhali istifadə etmişdir. Keçən ilin müvafiq aylarına nisbətən dəyər ifadəsində 7,7 faiz artan həmin xidmətlərdən əldə olunan gəlirin 81,6 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

Pərakəndə ticarət dövriyyəsində də tendensiya artımla müşahidə olunur. Belə ki, sözügedən dövrdə ölkədəki pərakəndə ticarət şəbəkəsindən əhaliyə 26,1 milyard manatlıqdan çox məhsul satılmış, 6,2 milyard manatlıq ödənişli xidmətlər göstərilmişdir. Ötən ilin eyni dövrünə nisbətən əmtəə dövriyyəsi 2,7, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə edilən gəlir 2,6 faiz artmışdır.

Bu tendensiyada qiymətlərdən daha çox əhalinin gəlirlərinin artması rol oynamışdır. Dövlət Statistika Komitəsinin məlumatına görə, yanvar-avqust aylarında muzdla işləyənlərin nominal əməkhaqqı ötən ilin eyni dövrünə nisbətən 3,1 faiz artaraq 541,2 manat olmuşdur. Ümumilikdə əhalinin gəlirləri 9 ay ərzində nominal ifadədə 9,5 faiz çoxalaraq 39 milyard 690,3 milyon manata çatmışdır.

Qiymətlərə gəldikdə, Dövlət Statistika Komitəsinin məlumatına görə, yanvar-sentyabr aylarında istehlak məhsullarının və xidmətlərin qiymətləri 2,6, o cümlədən ərzaq 2,5, qeyri-ərzaq 3, ödənişli xidmətlərin tarifləri 2,5 faiz bahalaşmışdır.

Sonda Azərbaycanın xarici ticarət əlaqələri barədə ilkin məlumat: gömrük orqanlarına qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri də nəzərə alınmaqla yanvar-avqust aylarında ölkənin xarici ticarət dövriyyəsinin həcmi 20 milyard 275,7 milyon dollar olmuşdur. Ticarət dövriyyəsinin 66,1 faizini ixrac, 33,9 faizini idxal məhsulları təşkil etmişdir ki, bu da 6,5 milyard dollarlıqdan çox müsbət saldo deməkdir. Ötən ilin 8 ayı ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 34,8, o cümlədən ixrac 37,7, idxal 29,5, real ifadədə isə dövriyyə 0,2, o cümlədən ixrac 1, idxal 1,2 faiz artmışdır. Qeyri-neft məhsullarının ixracında da artım kifayət qədər yüksək olmuşdur. Faktiki qiymətlərlə 13,5, real ifadədə 4 faiz artan bu cür məhsulların ixracının ümumi dəyəri 1,09 milyard dolları üstələmişdir.

*"Azərbaycan"*

## Vergiyə və vergi ödəyənlərə münasibət dəyişir

İstənilən ölkənin iqtisadi inkişafı üçün görülən işlərin dərin analizi, çatışmazlıqların hərtərəfli təhlili, düzgün və optimal çıxış yollarının tapılması zəruridir. Azərbaycanda iqtisadi, humanitar, beynəlxalq münasibətlər sahəsində əldə edilən uğurlar elə rəngarəng və müxtəlifdir ki, müəyyən çatışmazlıqlara məhəl qoymadan qazanılan nailiyyətlərdən günlərlə danışmaq mümkündür.

Oktyabrın 9-da Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ölkə iqtisadiyyatında, o cümlədən aqrar sektorda, hərbi və humanitar sahələrdə qazanılan uğurlar nə qədər ətraflı və dərindən təhlil edilsə də, Prezident İlham Əliyev tənqidi məqamlara da islahatçı lider kimi yanaşdı, ölkənin gələcək inkişafı, güclənməsi üçün göstərişlərini verdi, zəruri təkliflərini diqqətə çatdırdı. Biz bu dəfə vergilər naziri Mikayıl Cabbarovun hökumətin qeyd olunan iclasındakı çıxışına istinad edib ölkənin vergi sistemində aparılan islahatlar və onların nəticələrindən bəhs edəcəyik.

Əvvəlcə onu qeyd edək ki, ölkə iqtisadiyyatında müşahidə olunan müsbət trendlər fonunda cari ilin 9 ayında 5 milyard 298 milyon manat proqnoza qarşı 5 milyard 306 milyon manat vergi toplanılmış və proqnoza 100,2 faiz əməl olunmuşdur. Ödənilən vergilərin 65,8 faizi qeyri-neft sektorunun payına düşür. Qeyri-neft sektorunun özəl bölməsindən vergi yığımları isə 7 faiz artmışdır. Hesabat dövründə həmçinin regionlardan vergi daxilolmaları 500 milyon manatı keçərək ötən ilin müvafiq dövrü ilə müqayisədə 12 faiz çoxalmışdır.

Amma Nazirlər Kabinetinin iclasında vergilər naziri çıxışını belə müsbət rəqəmlərin üzərində yox, dövlət başçısının vergi orqanları qarşısında "gizli iqtisadiyyat"ın səviyyəsinin azaldılması, şəffaflığın və bərabərliyin təmin edilməsi, vergi mədəniyyətinin yüksəldilməsi kimi mühüm tapşırıqların icrası üzərində qurdu.

Azərbaycanda yaradılmış əlverişli iqtisadi mühitin və daxili istehlak bazarının mövcudluğu, ixracın təşviqi üçün görülən tədbirlər sahibkarlıq fəaliyyətini stimullaşdırır, biznesə qoşulmaq istəyən fərdlərin qarşısında yeni imkanların açılmasına şərait yaradır. Bu baxımdan yanaşanda sahibkarlıq fəaliyyətində şəffaflığın tam təmin edilməsi bir nömrəli məsələyə çevrilir. Biz hələ də uçotsuz fəaliyyət, qeyri-rəsmi məşğulluq, real dövriyyənin gizlədilməsi və vergidən yayınma cəhdlərinin geniş yayılmasını etiraf etmək məcburiyyətindəyik. Belə mənfi halların qarşısının alınması vergi yığımı üçün böyük potensial olmaqla yanaşı, büdcə gəlirlərinin artırılması üçün də əhəmiyyətlidir. Amma ən vacibi odur ki, qanunauyğun fəaliyyət göstərən vergi ödəyənlərin mənafeləri haqsız rəqabətdə sıxışdırılmasın, ədalətli biznes fəaliyyətinin əsas meyarı olan qanun qarşısında bərabərlik təmin edilsin. Dövlətin tətbiq etdiyi geniş güzəştlər də bu məqsədə xidmət edir.

Lakin sadələşdirilmiş verginin əhatə dairəsinin hər il genişləndirilməsini təhlil edərkən Vergilər Nazirliyi belə qənaətə gəlir ki, verilən bu dəstəkdən sui-istifadə halları hələ də qalır, böyük əməliyyatlar aparan bir sıra iri vergi ödəyənlər müxtəlif yollarla sadələşdirilmiş vergitutma rejimində qalmaqla vergidən yayınmağa cəhdlər edirlər. Əslində isə müəyyən sahələrin inkişafı üçün tətbiq olunan vergi güzəştləri iqtisadiyyatın lokomotivi funksiyasını daşımalı, sahibkarları həvəsləndirmək missiyasını yerinə yetirməlidir.

Nazirin çıxışında o da etiraf olundu ki, vergi ödəyənlərin fəaliyyətində uçot sisteminin zəifləməsi müəyyən qədər vergi orqanlarının da günahıdır. Nəticə etibarilə illərlə yaranmış artıq ödəmələr cari ilin vergi proqnozunun icrasında obyektiv çətinliklər yaradır. Uzun müddət formalaşmış vergiödəmə vərdişlərinin dəyişdirilməsi o qədər asan olmasa da, problemin həllinin tapılması vacibdir. Nazirliyin apardığı təhlildən belə çıxır ki, vergi mühitinin şəffaf, bərabər, hamı üçün eyni və əvvəlcədən təxmin edilən prinsiplər əsasında qurulması davam etdirilməlidir. Yeri gəlmişkən qeyd edək ki, dövlət başçısı da yekun nitqində bir çox sahibkarların bəzi dövlət məmurlarına arxalanmalarının artıq keçmişdə qaldığını bəyan etdi: "Əgər hansısa bir dövlət məmuru sahibkarlara xüsusi şərait yaratmaq üçün qanunsuz əməllər edəcəksə, çox ciddi şəkildə cəzalandırılacaq. Bütün müvafiq qurumlara göstəriş verildi, ilk növbədə Vergilər Nazirliyinə. Bu nazirlik heç nəyə baxmadan, dövlət maraqlarını rəhbər tutaraq öz siyasətini aparmalıdır. Bütün dövlət qurumları, o cümlədən sahibkarlar bu sahədə öz dəstəyini verməlidirlər. Dəstək verməyən isə cəzalandırılacaq".

Cari ildə nazirlik tərəfindən vergi ödəyənlərlə şəffaf münasibətlərin qurulmasına yönəlmiş tədbirlərin həyata keçirilməsi hesabına qeyri-neft sektorunda dövriyyələr 7,1 faiz artaraq 44 milyard manatı ötmüş, ticarətdə dövriyyə 18,4, o cümlədən pərakəndə ticarət dövriyyəsi 27,9 faiz artmışdır. Vergi ödəyənlərə öz uçot sənədləşmə işlərini qaydaya salmağa imkan yaratmaq üçün səyyar vergi yoxlamalarının sayı 3 dəfə azaldılmışdır.

Dövlət Gömrük Komitəsi ilə birlikdə idxal-ixrac əməliyyatlarına səmərəli nəzarət sisteminin qurulması məqsədilə Vahid Risk Platforması tətbiq edilmişdir. Bu ayın əvvəlində isə hər iki qurumun keçirdiyi birgə kollegiya iclasında açıq qalan məsələlərin həlli yolları müzakirə olunmuş, ilin sonunadək çox müsbət fiskal nəticələrə gətirən birgə tədbirlərin reallaşdırılmasına qərar verilmişdir. Həmçinin aksizli malların dövriyyəsinə vergi nəzarəti gücləndirilmiş, ən iri 30 istehsalçıda bu il avqustun 1-dən aksiz postları qurulmuşdur. Faktiki olaraq bir məhsul növünün adı altında digərinin istehsalının, saxta aksiz markalarından istifadənin və aksiz markası olmadan məhsul satışının qarşısı alınmışdır. Bircə fakta diqqət yetirək: bu addım sayəsində avqust və sentyabr ayları üzrə araq istehsalı və onun daxili bazarda satış həcmi cari ilin ötən dövrü ilə müqayisədə orta hesabla 3 dəfə artmışdır. Aksizsiz tütün məhsullarının daxili bazarda satışının qarşısının alınması üçün atılan addımlar sayəsində isə daxili bazarda qaçaq malın payı cari ilin əvvəlindəki 19 faizdən 3 faizə enmişdir. Qanunsuz olaraq daxili bazara yol tapmış tütün məhsullarına qarşı mübarizə yerli məhsulların istehsalında canlanma yaratmışdır. Yerli istehsalçıların daxili bazarda satış həcmi ötən ilin yanvar-avqust ayları ilə müqayisədə cari ilin müvafiq dövründə 75 faiz artmışdır.

Aparılan islahatların daha bir mühüm qolu vergi qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı keçirilən intensiv görüşlərdə sahibkarları narahat edən məsələlərin həlli yollarının birgə müzakirə edilməsi olmuşdur. Bu təmasların zəminində hazırlanmış dəyişikliklər paketi vergidən yayınmanın və "gizli iqtisadiyyat"ın miqyasının azaldılması, iqtisadi artımın və sahibkarlığın effektiv dəstəklənməsi, vergitutma rejiminin təkmilləşdirilməsi və vergitutma bazasının genişləndirilməsi, inzibatçılığın və nəzarətin gücləndirilməsindən ibarətdir. Məhz bu görüşlərdə sadələşdirilmiş verginin dərəcəsinin endirilməsi, pərakəndə ticarət və iaşədə nağdsız ödənişlər üzrə müddətli vergi güzəştlərinin verilməsi, gəlir və xərcin uçotunu aparan kiçik sahibkarların dividend gəlirlərinin vergidən azad olunması, vergi ödəyənlər tərəfindən çəkilən qeyri-kommersiya xərclərinin, o cümlədən səhiyyə, təhsil, mədəniyyət və idman sahələrinə ayrılmış ianələrin müəyyən hissəsinin gəlirdən çıxılması təklif edilmişdir. Bundan əlavə, qeyd olunmuşdur ki, bir çox hallarda əməkhaqqı üzrə sosial sığorta və vergi yükünün yüksək olması sahibkarları qeyri-rəsmi əməkhaqqı ödənilməsi praktikasına sövq edir və nəticədə "gizli iqtisadiyyat"ın genişlənməsinə zəmin yaranır. Hətta inzibati tədbirlər belə problemi tam aradan qaldırmağa imkan vermir. Müzakirələr zamanı təklif edilmişdir ki, sahibkarlarda iqtisadi motivasiyanın yaradılması üçün qeyri-neft sektorunda əməkhaqqı ilə əlaqəli olan ödənişlərə uzunmüddətli vergi güzəşti və vahid inzibatçılığın tətbiqi fayda verə bilər, qeyri-rəsmi məşğulluğun səviyyəsi azalar.

Bir sözlə, biz onun şahidi oluruq ki, vergi sistemində ciddi islahatlar aparılır. Dövlət başçısı da bu islahatları dəstəkləyir və bir daha qeyd edir ki, əsas vəzifə "gizli iqtisadiyyat"ın aradan qaldırılması olmalıdır: "Düzdür, heç bir ölkədə buna 100 faiz nail olunmayıb, hər bir ölkədə "gizli iqtisadiyyat" var, amma bunun dərəcəsi var. Azərbaycanda "gizli iqtisadiyyat"ın kəskin şəkildə azalması üçün çox ciddi addımlar atılır. Vergidən yayınma halları əvvəlki illərdə kütləvi xarakter daşıyırdı. Bu, əlbəttə, imkan vermirdi ki, biz öz potensialımızı tam gücü ilə işə salaq. Bu gün bu hallara son qoyulur. Bütün dövlət orqanları vergi orqanlarına kömək göstərməlidirlər. Müvafiq göstərişlər verilir. Vergidən yayınmaya son qoyulmalıdır. Bu, həm iri, həm kiçik sahibkarlara aiddir. Sahibkarlar da bilməlidirlər ki, əgər onlar sahibkarlar kimi öz fəaliyyətini davam etdirmək istəyirlərsə, vergiləri tam ödəməlidirlər. Heç kimə heç bir güzəşt edilmir və edilməyəcək".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Azərbaycanın qeyri-neft sənayesinin yeni ünvanı bölgələrdir

Ölkənin sənayeləşməsi siyasəti son 15 ildə həyata keçirilən iqtisadi islahatların əsas hədəflərindəndir. Bu hədəflər sırasında öndə olanı isə qeyri-neft sənayesinin inkişafıdır. Odur ki, Azərbaycanın sənayeləşməsindən danışılarkən bu gün yalnız qeyri-neft sənayesi nəzərdə tutulur. Onu da qeyd edək ki, qeyri-neft sənayesi istiqamətində atılan addımlar öz bəhrəsini verir. Belə ki, bu sektorda məhsul istehsalının çəkisi ildən-ilə artır, indi biz bir sıra sənaye məhsulları ilə daxili tələbatı ödəməklə yanaşı, onları ixrac da edirik.






Həyata keçirilən iqtisadi islahatlar sayəsində sənayenin bir sıra sahələri paralel inkişaf etdirilir. Məsələn, sənaye parklarında mülki təyinatlı məhsullar istehsal edilirsə, hərbi sənaye kompleksində, adından da göründüyü kimi, hərbi təyinatlı məhsullar hazırlanır. Bununla yanaşı, maşınqayırma, gəmiqayırma və s. sahələrin inkişafı da diqqət mərkəzindədir. Xüsusilə son dövrlər informasiya-kommunikasiya texnologiyaları sektorunda da məhsul və xidmət sahələri genişlənir.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Azərbaycanda müasir sənayenin inkişafı istiqamətində görülən işləri yüksək qiymətləndirərək demişdir: "Bu yaxınlarda orbitə çıxarılmış "Azərspace-2" peykini qeyd etmək istərdim. Bu, böyük nailiyyətdir. Bu, kosmik dövlət kimi Azərbaycanın mövqeyini daha da möhkəmləndirir. Bizim indi 3 peykimiz var... Bu, kommersiya baxımından çox əlverişli layihədir, özünü tam doğruldacaq və bizə böyük həcmdə valyuta gətirəcək. Bu, bir ixrac növüdür. Eyni zamanda, kadr hazırlığı, texnologiyaların inkişafı baxımından çox önəmli layihədir".

Sitatdan da aydın görünür ki, biz sənaye sahəsində son texnologiyalara üstünlük veririk, bu istiqamətdə kadr hazırlığını diqqət mərkəzində saxlayırıq. Çünki yüksəksəviyyəli kadrlar olmadan belə texnologiyaları idarə etmək mümkün deyil. Bunu texnoparklar və sənaye məhəllələri yaradılarkən də görmüşük. Yeri gəlmişkən qeyd edək ki, bu istiqamətdə görülən işlər uğurla davam edir. Artıq Sumqayıtda fəaliyyət göstərən Kimya Sənaye Parkındakı müəssisələr yüksəkkeyfiyyətli məhsul istehsal edərək daxili tələbatı ödəməklə yanaşı, dünya bazarına da çıxır. Sumqayıt bu gün həmin hesaba Cənubi Qafqazda ikinci böyük sənaye şəhərinə çevrilib. Yeni müəssisələrin fəaliyyəti şəhər əhalisinin işlə təmin olunmasında da önəmli rol oynayır. Gələn il Sumqayıt Kimya Sənaye Parkında daha bir neçə müəssisə fəaliyyət göstərəcək.

Sənaye parkları və məhəllələrinin bölgələrdə yaradılması təsadüfi deyil. Belə yanaşma həm ölkənin ümumi inkişafını, həm də regionda yaşayan əhalinin məşğulluğunu təmin edir. Digər tərəfdən, regionlarda istehsal olunan xammal potensialından istifadə olunur. Məsələn, məlum olduğu kimi, Mingəçevir Sənaye Parkında 2 böyük iplik fabriki fəaliyyət göstərir. Bu müəssisələrdə qonşu rayonlarda istehsal edilən pambıq, yun və barama kimi xammaldan istifadə olunur.

Azərbaycanda kimya, təkrar emal, gəmiqayırma, yüksək texnologiyalar, yüngül sənaye, əczaçılıq sahələrində ixtisaslaşmış sənaye və texnologiyalar parkları fəaliyyət göstərir. Bu sənaye parklarının 40-dan çox rezidenti var və onlar tərəfindən indiyədək 2,7 milyard dollardan çox investisiya yatırılıb, növbəti mərhələdə 1 milyard dollaradək investisiya qoyuluşu nəzərdə tutulub. Hazırda sənaye parklarında fəaliyyət göstərən müəssisələrdə tanker və gəmilər, elektron təhsil avadanlıqları, metal konstruksiyalar, maşınqayırma avadanlıqları, polad və polietilen borular, mexaniki və hidrotexniki avadanlıqlar, polipropilen, pesitisidlər, müxtəlif növ sürtkü yağları, xortum və fitinik birləşmələri, kabellər, polimer məmulatlar, texniki qazlar, alüminium və plastik profillər, pambıq iplikləri və s. istehsal edilir. Sənaye parklarında tikintisi davam edən 6 sənaye müəssisəsinin cari ilin sonunadək, digərlərinin gələn il istismara verilməsi nəzərdə tutulub.

Qeyd etdiyimiz kimi, Azərbaycanda sənayeləşmə istiqamətində sənaye parklarının xüsusi rolu var. Bu səbəbdən dövlət sənaye parklarının yaradılmasına böyük əhəmiyyət verilir. Məsələn, dövlət hesabına sənaye parklarının rezidentləri üçün əlverişli infrastruktur yaradılır, rezidentlər qeydiyyata alındıqları gündən 7 il müddətinə mənfəət, əmlak və torpaq, həmçinin parka istehsal məqsədilə gətirilən texnika, texnoloji avadanlıqlar və qurğulara görə əlavə dəyər vergilərindən, eyni zamanda gömrük rüsumundan azad olunurlar. Həmçinin sənaye parklarında rezidentlərin qeydiyyatı "bir pəncərə" sistemi ilə həyata keçirilir ki, bu da sahibkarların daha operativ və rahat fəaliyyət göstərməsinə imkan yaradır.

Sənaye parkları ilə yanaşı, sənaye məhəllələrinin yaradılması istiqamətində həyata keçirilən islahatlar da uğurla davam etdirilir. Sənaye məhəllələri regionlarda kiçik və orta sahibkarlığın inkişafına, eləcə də yerli ehtiyatlardan səmərəli istifadə etməklə yeni sənaye sahələrinin yaradılmasına imkan verir. Hazırda bir neçə rayonda belə məhəllələr uğurla fəaliyyət göstərir. Hacıqabul Sənaye Məhəlləsində isə tikinti işlərinin cari ilin sonunadək başa çatdırılması nəzərdə tutulur. Bu sənaye məhəlləsində ümumi dəyəri 44 milyon manat olan 7 layihənin icrası nəticəsində 870-dən çox yeni iş yerinin yaradılması gözlənilir. Məhəllədə ağır maşınqayırma, xüsusi vaqonqayırma və kompozit materialları, plastik su qabları, tara, eləcə də avtomobil, tikinti materiallarının istehsalı avadanlıqları sahələri fəaliyyət göstərəcək. Sabirabad Sənaye Məhəlləsində də tikinti işlərinə başlanılıb. İşlər gələn il başa çatacaq. Burada yun tədarükü, tikinti materiallarının, orqanik gübrələrin, müxtəlif avadanlıqların əyləc sistemlərinin istehsalı, kənd təsərrüfatı məhsullarının və işlənmiş təkərlərin emalı sahələri üzrə müəssisələr yaradılacaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Dünya yeni sürətlə silahlanma ərəfəsindədir?

## *Trampın bəyanatları beynəlxalq ictimaiyyəti narahat edir*

ABŞ Prezidenti Donald Trampın son günlər verdiyi bəyanatlar dünya ictimaiyyətinin diqqət mərkəzindədir. Amerika lideri oktyabrın 21-də bildirmişdi ki, onun ölkəsi ortamənzilli və qısamənzilli raketlərin ləğvi haqqında sazişdən (OQMP) çıxmaq niyyətindədir. Tramp belə bir qərarı əsaslandırarkən növbəti dəfə iddia etmişdi ki, Rusiya sazişin şərtlərini pozur və bu səbəbdən Vaşinqton müqavilədən çıxmaq niyyətindədir. O əlavə etmişdi ki, OQMP-ə Çin də qoşulmalıdır.



Eyni zamanda Tramp söz vermişdi ki, Rusiya və Çin yeni sazişin imzalanmasına razılıq verməyənədək ABŞ silahlarını inkişaf etdirəcək. Amma o vaxt söhbət nüvə silahından getməmişdi. Öz növbəsində Moskva Vaşinqtonun hərəkətlərinə cavab olaraq zəruri hərbi-texniki tədbirlər görəcəyini bəyan etmişdi. Srağagün isə Ağ evin başçısı yeni bəyanatla çıxış edərək elan etmişdir ki, ABŞ Rusiya və Çinə təzyiq göstərmək üçün öz nüvə cəbbəxanasını artırmaq niyyətindədir.

1987-ci ildə ABŞ-la keçmiş SSRİ arasında bağlanmış OQMP sazişi tərəflərin 500 kilometrdən 5,5 min kilometrədək uçuş məsafəsi olan ballistik və qanadlı raketləri ləğv etməsini nəzərdə tutur. O vaxtdan bəri tərəflər zaman-zaman bir-birini müqavilənin şərtlərini pozmaqda ittiham edirdi. İndisə ABŞ Rusiyanın OQMP-i pozmasını əsas gətirərək sazişdən çıxmağı planlaşdırır. Özü də ABŞ-ı təkcə Rusiyanın müqaviləni pozması və bunun Avropa teatrına mümkün təsiri narahat etmir. Heç demə, Vaşinqtonun OQMP-dən çıxmaq planı həm də onun Şərqi Asiya teatrı, Cənubi Asiya teatrı, İran və Yaxın Şərqdə vəziyyətlə əlaqədardır. Trampın milli təhlükəsizlik üzrə köməkçisi Con Bolton hesab edir ki, bütün bu "qlobal təhdidlər" Ağ evi OQMP-dən çəkilməyə sövq edir.

Vaşinqtonun OQMP-dən çıxmaq niyyəti Rusiya və Çinlə yanaşı, ABŞ-ın NATO üzrə müttəfiqlərini də ciddi narahat edir. Söhbət faktiki olaraq yeni sürətlə silahlanmadan gedir. Bu isə dünyada cəbhələşmənin meydana gəlməsi, beynəlxalq aləmdə sabitliyin pozulması, üstəlik, külli miqdarda maliyyə vəsaitinin silahlanmaya sərf edilməsi deməkdir.

BMT-nin baş katibi Antoniu Quterriş hesab edir ki, ABŞ və Rusiya OQMP sazişi ilə bağlı aralarında yaranmış fikir ayrılığını nizamlaya bilərlər. Onun fikrincə, iki ölkə mövcud ixtilafları aradan qaldırmaqla qüvvəsi üç ildən sonra bitəcək Strateji Silahların İxtisarı və Məhdudlaşdırılması haqqında Müqavilənin müddətinin uzadılmasına nail ola və nüvə silahı ehtiyatlarının azaldılması istiqamətində addımlar ata bilər.

ABŞ-ın NATO üzrə müttəfiqlərinə gəlincə, Almaniya və Fransa Trampın təhlükəli planının əleyhinə çıxır, Böyük Britaniya isə Ağ evin başçısını dəstəkləyir. Şimali Atlantika alyansı Amerika liderinin atmaq istədiyi addıma görə məsuliyyəti Rusiyanın üzərinə qoyur, çünki Moskva "güman ki, OQMP-i pozur".

ABŞ rəsmilərinin bəyanatlarından aydın olur ki, Vaşinqtonun OQMP sazişindən çıxmaq niyyəti ilk növbədə müqaviləyə yeni tərəfləri qoşmaqla yeni sazişin bağlanmasına nail olmaqdır. Bolton bugünlərdə Moskvada olarkən qeyd etmişdir ki, yeni OQMP-i ərsəyə gətirmək təkcə ABŞ və Rusiyanın imkanı xaricindədir: "Bir sıra ölkələr var ki, orta mənzilli raketlər, qanadlı raketlər istehsal edir. Bunlar, əlbəttə, Şimali Koreya və Çindir. ABŞ və Rusiya üçün qeyri-adi vəziyyət yaranır: indi ikitərəfli saziş, Sovet İttifaqı dövründə olduğu kimi, hər şeyi əhatə edən müqavilə deyil". Bolton qeyd etmişdir ki, hazırkı vəziyyətdə Rusiya bu prosesin oyunçularından yalnız biridir. Ona görə də ABŞ hesab edir ki, təkcə iki ölkə bu problemi tamamilə həll edə bilməz.

Göründüyü kimi, Vaşinqton OQMP sazişinin iştirakçılarının sayını artırmaq və bu yolla qüvvədə olan müqavilənin şərtlərini Çin, KXDR kimi ballistik raketlər istehsal edən ölkələrə şamil etməyi hədəfləyir. Lakin bu məqsədə çatmaq elə də asan deyil. Moskvanın fikrincə, əvvəla, yeni sazişin konturlarını müəyyən etmədən qüvvədə olan müqaviləni ləğv etmək alqışlana bilməz. Digər tərəfdən, Rusiya paytaxtında belə bir fikir səslənir ki, ballistik və qanadlı raketlərə malik olan Böyük Britaniya və Fransa, eləcə də Hindistan, Pakistan, İsrail kimi nüvə dövlətləri də var. Amma Vaşinqton yeni OQMP-dən danışarkən bu ölkələrin üstündən sükutla keçir. Rusiya Federasiya Şurasının beynəlxalq məsələlər komitəsinin sədri Konstantin Kosaçov hesab edir ki, Vaşinqtonun Çini OQMP-ə qoşmaq çağırışı siyasi həyasızlıqdan başqa bir şey deyil. Onun fikrincə, problemin bu yolla həlli Vaşinqtonun dünyanı öz istəyinə görə dəyişdirmək, Qərb üçün imtiyazlı təhlükəsizlik şəraiti yaratmaq və qalan ölkələri Qərbdən asılı vəziyyətə qoymaq cəhdinə dəlalət edir.

Öz növbəsində rəsmi Pekin ABŞ-ın OQMP sazişini genişlətmək niyyətinə sərt reaksiya vermişdir. Çin Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Xua Çunyin bildirmişdir ki, Pekin hər hansı ölkənin şantajına boyun əymək fikrində deyil. O xatırlatmışdır ki, OQMP sazişi ABŞ-la keçmiş SSRİ arasında bağlanmışdır, yəni müqavilə ikitərəflidir. Diplomat vurğulamışdır ki, Çin bundan sonra da öz milli müdafiə siyasətinin müdafiə xarakterinə sadiq qalacaq. O əlavə etmişdir ki, Pekin ABŞ-a axına qarşı üzməməyi və sözügedən məsələdə hansısa qərar qəbul etməzdən əvvəl iki dəfə düşünməyi tövsiyə edir.

Ekspertlər hesab edirlər ki, ABŞ Prezidenti OQMP sazişindən çıxmaq hədəsi ilə müqaviləyə yeni iştirakçılar cəlb edə bilməyəcək. Çin sənədi birmənalı şəkildə rədd edir. Tramp ABŞ-ın müttəfiqlərini və dostlarını isə yeni OQMP sazişə qoşmağı lazım bilmir. Elə isə, Böyük Britaniya, Fransa, Hindistan, Pakistan, yaxud İsraili gələcək sazişi imzalamağa kim məcbur edə bilər? Belə olan halda yalnız ümid etmək olar ki, Tramp yerli ictimaiyyətin, avropalı müttəfiqlərin təzyiqi ilə elan etdiyi plandan geri çəkilsin.

Bəzi siyasi müşahidəçilərin fikrincə, Trampın son bəyanatları həm də daxili auditoriyaya hesablanmışdır: Ağ evin sahibi gələn ay Konqresə keçiriləcək aralıq seçkilərində Respublikaçılar Partiyasının mövqeyini möhkəmlətmək məqsədi güdür. Prezident hesab edir ki, bununla ABŞ-ın maraqlarını müdafiə edir. Amma çətin ki, belə təhlükəli addımlarla seçici rəğbəti qazanmaq mümkün olsun.

***Allahverdi MEHDİYEV, "Azərbaycan"***

---

Təkrar

## "Bakı Metropoliteni" QSC "Xətai" stansiyasının maili tunelində köhnə çətirin sökülməsi və yenisinin quraşdırılması işlərinin satın alınması üzrə

### *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi 20-dən (Əlaqələndirici şəxs: Zakir Hacıyev, telefon: 490-00-91) ala bilərlər.

**LOT-1.** "Xətai" stansiyasının maili tunelində köhnə çətirin sökülməsi və yenisinin quraşdırılması işlərinin satın alınması

**İştirak haqqı- 700 manat**

**Hesabın adı: "BAKI METROPOLİTENİ" QSC**
**Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı : AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 90 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 14 noyabr 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 22 noyabr 2018-ci il saat 17:00-a qədər Bakı şəhəri, M.Rəfili küçəsi 20 ünvanına "İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 23 noyabr 2018-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

---

## Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinin Sumqayıt Regional Reklam İdarəsi

### *açıq tender elan edir*

**Tender 2 (iki) LOT üzrə keçiriləcəkdir.**

LOT-1 Sedan tipli nəqliyyat vasitələrinin satın alınması.
LOT-2 Minivan tipli nəqliyyat vasitələrinin satın alınması.

Tender iştirakçıları "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq yuxarıda göstərilən lotlar üzrə öz tender təkliflərini möhürlənmiş, imzalanmış və ikiqat zərfdə, yazılı surətdə təqdim etməlidirlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

- aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, iddiaçının bu sahədə səriştəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderlə əlaqədar məlumat almaq üçün maraqlananlar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Qasımov Telman Məhəmməd oğlu, tel: +99418 654-50-50**

Ünvan: Sumqayıt şəhəri, Bakı küçəsi 60, Sülh Plaza otaq №604

Maraqlananlar Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu hər bir LOT üzrə 250 (iki yüz əlli) manat məbləğində iştirak haqqını ödədikdən sonra yuxarıda göstərilən ünvandan ala bilərlər.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba ödəməlidirlər:

| | |
|---|---|
| **Təşkilatın adı:** | **Sumqayıt Regional Reklam İdarəsi** |
| **Bank:** | **Kapital Bank ASC Sumqayıt I filialı** |
| **VÖEN:** | **9900003611** |
| **H/h:** | **AZ24AIIB38060019440334338125** |
| **VÖEN:** | **2904721641** |
| **Kod:** | **200253** |
| **Müxbir hesab:** | **AZ37NABZ01350100000000001944** |
| **SWIFT:** | **AIIBAZ2X** |

Tenderdə iştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü güvvədə olmalıdır);*
- *tender təklifinin ümumi qiymətinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*
- *müvafiq mallar üzrə mənşə və uygunluq sertifikatları;*
- *müqaviləni yerinə yetirmək üçün potensial imkanları və maddi-texniki bazası haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **13 noyabr 2018-ci il saat 17:00-dək**, tender təklifi və bank təminatını isə möhürlənmiş və ikiqat zərfdə **29 noyabr 2018-ci il saat 17:00-dək** Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təkliflər **30 noyabr 2018-ci il saat 11:00-da** Sumqayıt Regional Reklam İdarəsində (ünvan: Sumqayıt şəhər, Bakı küçəsi 60, Sülh Plaza otaq №604) açılacaqdır.

Təklif zərflərinin açılışında iddiaçıların səlahiyyətli nümayəndələri də iştirak edə bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

***Tender komissiyası***

---

# Beynəlxalq aləm

## HADİSƏLƏR, FAKTLAR

## İran ABŞ-la qarşılıqlı hörmət əsasında danışıqlara hazırdır



İran ABŞ-la qarşılıqlı hörmət əsasında danışıqlar aparmağa hazırdır. Bu barədə islam respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərif Yaponiyanın "Kyodo" informasiya agentliyinə müsahibəsində bildirmişdir.

Zərifin dediyinə görə, İranın ABŞ-la danışıqlar aparması üçün heç bir ilkin şərti yoxdur, lakin Vaşinqton administrasiyası Tehrana hörmət etməlidir. "Biz heç bir ilkin şərt irəli sürmürük, ancaq danışıqlar masası arxasına oturmaq üçün qarşılıqlı hörmət nümayiş etdirilməlidir" deyə Zərif bildirmişdir.

Nazir diqqəti Böyük Britaniya, Almaniya və Fransanın hazırladığı bank əməliyyatları və neft ixracının ABŞ sanksiyalarından müdafiəsinə yönəlmiş mexanizmə cəlb etmişdir. Zərifin fikrincə, bu mexanizmi noyabrın 5-dək, yəni ABŞ-ın İrana qarşı ikinci sanksiyalar paketi tətbiq olunanadək işə salmaq lazımdır. O qeyd etmişdir ki, ABŞ-ın sanksiyalarına baxmayaraq, bir çox ölkələr Tehranla iqtisadi münasibətləri inkişaf etdirirlər.

Xatırladaq ki, mayın 8-də ABŞ Prezidenti Donald Tramp Vaşinqtonun İranla nüvə sazişindən çıxdığını və bu ölkəyə qarşı sanksiyaların tətbiq olunduğunu elan etmişdir.

## Vyetnamda yeni Prezident seçildi

Hakim Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi, 74 yaşlı Nquyen Fu Çonq Vyetnamın yeni Prezidentidir. Onu ölkənin Milli Məclisi seçmişdir. Bu barədə TASS agentliyi xəbər verir.



Fu Çonq 1944-cü il aprelin 14-də paytaxt Hanoyun yaxınlığındakı Donqan qəzasında anadan olmuşdur. Hanoy Universitetinin filologiya fakültəsində rus dili və ədəbiyyatını öyrənmiş, sonralar namizədlik dissertasiyası müdafiə etmişdir.

Fu Çonq Vyetnamın müasir tarixində həm ali partiya rəhbəri, həm də dövlət başçısı olan ikinci şəxsdir.

Xatırladaq ki, ötən ayın 21-də ölkə Prezidenti Çan Day Kuanq qəflətən vəfat etmişdir.

## Çində dünyanın ən uzun dəniz körpüsü açıldı



Çinin Quandun əyalətinin Çjuxay şəhərində dünyada ən uzun dəniz körpüsünün açılışı olmuşdur. Təntənəli mərasimdə 700 nəfər, o cümlədən Çin Xalq Respublikasının sədri Si Cinpin, habelə Honq Konq və Makao administrasiyalarının başçıları Kerri Lam və Fernando Çuy iştirak etmişlər. Bu barədə "Sinxua" agentliyi xəbər verir.

Ümumi uzunluğu 55 kilometr olan tunel-körpü keçidi Makao, Çjuxay və Honq Konq şəhərlərini birləşdirmişdir. Keçid körpüdən və 6,7 kilometrlik sualtı tuneldən ibarətdir. Onun qurulması üçün iki süni ada yaradılmışdır. Konstruksiya qasırğaların və zəlzələnin zərbələrinə tab gətirməyə qadirdir.

İnşası doqquz ildən çox davam edən körpü 15 milyard avroya başa gəlmişdir. O, Honq Konqdan Çjuxaya səfər vaxtını 3 saatdan 30 dəqiqəyə endirməyə imkan verir. Keçiddən hər gün təxminən 30 min nəqliyyat vasitəsi və 120 mindən çox sərnişin istifadə edəcək.

---

## Bildiriş

"Bakı Metropoliteni" QSC tərəfindən keçirilmiş 1 ədəd 110 KVA generatorun açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə "Santral Elektrik LTD" MMC qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilat ilə 22.10.2018-ci il tarixdə ƏDV daxil 18 502,40 (on səkkiz min beş yüz iki manat 40 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

---

*Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən 16 iyun 2016-cı il tarixdə Rauf Fikrət oğlu Tağıyevin adına Bakı şəhəri, Yasamal rayonu, Həsən bəy Zərdabi prospekti, 3153/57-ci məhəllə, ev 59A, mənzil 62 ünvanına dair verilmiş Çıxarış (seriya RX, № 0869559, qeydiyyat nömrəsi 1116041271) itdiyi üçün etibarsız sayılır.*

## Nigeriyada 200 nəfəri sel apardı



Nigeriyanın Adamava ştatında leysan yağışlarından sonra gələn sel 200 nəfərin həyatına son qoymuşdur. Azı 357 min nəfər ev-eşiksiz qalmışdır. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Nigeriyanın Fövqəladə Hallar üzrə Milli Agentliyinin başçısı Məhəmməd Süleyman ştatın paytaxtı Yola şəhərində bildirmişdir ki, leysan yağışları və ondan sonra baş vermiş daşqın və sellə əlaqədar 7893 ev zərər çəkmişdir. Fəlakət 357300 nəfərə ziyan vurmuşdur.

M.Süleymanın dediyinə görə, agentlik qonşu ştatlardan və federal hökumətdən yardım istəmişdir.

---

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərenerji" ASC-nin kollektivi səhmdar cəmiyyətin Perspektiv inkişaf və investisiya idarəsinin rəisi Zaur Axundova

**ATASININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

DİN Maliyyə-Plan İdarəsinin rəisi Səxavəddin Abdullayev Nazirlər Kabineti Aparatı Maliyyə və iqtisadiyyat məsələləri şöbəsinin müdiri Şahin Sadıqova əzizi

**İRADƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin kollektivi Hərbi qurumların və hüquq-mühafizə orqanlarının maliyyəsi şöbəsinin müdir müavini Muqdat İsmayılova anası

**FƏQUMƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Nazirlər Kabineti Aparatı Maliyyə və iqtisadiyyat məsələləri şöbəsinin müdiri Şahin Sadıqova əzizi

**İRADƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Neft Maşınqayırma Zavodu TASC-nin sədri Eldar Vəliyev Tofiq Hüseynova qaynı

**ŞAHMAR İBRAHİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8408
Sifariş 3122